KHAZAR VIEW

# XƏZƏR XƏBƏR

ELMİ-KÜTLƏVİ, ƏDƏBİ-PUBLİSİSTİK TOPLU

№ 346 Dekabr 2015




khazar-review.khazar.org

AYLIQ DƏRGİ

ISSN 2218-2772





PROFESSOR
**HALİL İNALCIK**

# “AVRASİYA ƏFSANƏSİ”

## TÜRKİYƏDƏ



# İÇİNDƏKİLƏR


**"Avrasiya əfsanəsi" Türkiyədə** ........ 4

**Bilkent Universitetində işgüzar görüş** ........ 8

**Hamlet İsaxanlı. Abituriyentlər daha bir-birindən köçürə bilməyəcək *(Məlahət Rzayeva)*** ........ 10

**Xəzər Universitetində Beynəlxalq Əlillər Günü münasibətilə tədbirlər.** ........ 12

**Universitet xəbərləri.** ........ 16

***Gültəkin Məmmədova.* Dərsliklərlə bağlı təlimdən çox razı qaldıq** ........ 19

**Layihə idarəetmə məktəbinin buraxılış mərasimi** ........ 21

**Xəzər Universitetində əmək yarmarkası** ........ 22

**Исахан Исаханлы. «Поэзия Есенина будет жить в моей душе всегда» *(Франгиз Ханджанбекова)*** ........ 24

***Şəbnəm Behbudzadə.* Hamıya nümunə ömür.** ........ 30

**ADDA PROJECT: Дизайн, объединяющий высокие технологии и близость к природе *(1news.az)*.** ........ 34

**Əlibaba Abdullayev-100** ........ 42

**Главное в жизни-сама жизнь *(Роза Аразова)*** ........ 46

***Xəlil Məcidoğlu.* Həyat lövhələri** ........ 54

***Jeffrey Kluger.* 4 Surprising Ways Science is Battling Aging** ........ 68

***Elza İsmayılova.* Hər kəsin özünün bir dünyası var...** ........ 72

***Xaqan Balayev.* Azərbaycan Xalq Cümhuriyyətinin hərbi quruculuq siyasəti** ........ 76

**Саадат Алиева. Устный перевод** ........ 78



1995-ci ilin
yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
Camal Mustafayev
Əjdər Ağayev
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

İngilis dilində
mətnlərin redaktoru:
Marta Lauri

Rəssamı:
Mir Rafiq Əbdülrəhimov

Kompüter tərtibatçısı:
Nigar Aydəmirova

Foto:
Multimedia Mərkəzi

XƏZƏR UNİVERSİTETİ · BAKI · 1991

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published
since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editors:
Alirza Balayev

Editorial member:
Jamal Mustafayev
Ajdar Aghayev
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

Editor of English Texts:
Martha Lawry

Design by:
Mir Rafig Abdulrahimov

Computer graphics:
Nigar Aydemirova

Photo:
Multimedia Centre



Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Türkiyənin Ankara şəhərində oldu, Bilkent Universitetində Osmanlı İmperiyası tarixinin əsas tədqiqatçılarından biri olan professor Halil İnalcık ilə görüşdü. Sonra Bilkent Universitetinin Mithat Çoruh Amfi konsert salonunda Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri Faiq Bağırovun iştirakı ilə Avrasiya Akademiyasının (Azərbaycan) təntənəli təqdimat mərasimi keçirildi. Tədbirdə Avrasiya Akademiyasının qurucu üzvləri - professor Hamlet İsaxanlı və Azərbaycanın xalq artisti, bəstəkar Arif Məlikov "Avrasiya əfsanəsi"ni Avrasiya Akademiyasının digər qurucu üzvü Halil İnalcıka təqdim etdilər.

EURASIAN ACADEMY

24 NOYABR 2015

# "AVRASİYA ƏFSANƏSİ" TÜRKİYƏDƏ



Mərasimdə xatirə şəkilləri çəkildi, həmçinin, yaxın gələcəkdə Bakıda keçiriləcək Avrasiya Akademiyasının rəsmi açılış mərasimində göstəriləcək çarx üçün çəkiliş aparıldı.

Görüşdə Xəzər Universitetinin Direktorlar və Qəyyumlar Şurasının Humanitar və təşkilatçılıq işləri üzrə müşaviri Nailəxanım İsayeva və İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli də iştirak etdilər.

Mərasimdən sonra Hamlet İsaxanlı və Faiq Bağırov görüşdülər və Azərbaycan-Türkiyə əlaqələri məsələlərini müzakirə etdilər.










# EURASIAN LEGEND IN TURKEY

EURASIAN ACADEMY

NOVEMBER 24, 2015

Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, visited Ankara, Turkey and met with Professor Halil Inalcik, a leading Ottoman Empire historian, at Bilkent University. Then a ceremony was held in Bilkent University's Mithat Coruh Amfi Concert Hall with the participation of Faiq Baghirov, Ambassador Extraordinary and Plenipotentiary of the Azerbaijan Republic to Turkey. At the ceremony, two of the founding members of Eurasian Academy, Prof. Hamlet Isaxanli and Arif Melikov, Azerbaijan People's Artist and well-known composer, presented the Eurasian Legend award to a third founding member, Halil Inalcik.



At the ceremony, photos were taken, and the entire ceremony was filmed for use in a short presentation that will be made in the official opening ceremony of Eurasian Academy in the near future in Baku. After the ceremony, Hamlet Isaxanli and Ambassador Baghirov discussed general issues related to Azerbaijani-Turkish relations.

Alovsat Amirbeyli, Khazar University's Director for Public Relations and Media, and Nailakhanim Isayeva, Advisor to the Board of Directors and Trustees for Humanitarian and Organizational Affairs, also participated in the ceremony.





# BİLKENT UNİVERSİTETİNDƏ İŞGÜZAR GÖRÜŞ



Noyabrın 24-də Xəzər Universitəsinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, professor Hamlet İsaxanlı və "Dünya" məktəbinin həmtəsisçisi Nailəxanım İsayeva Türkiyənin Ankara şəhərində yerləşən Bilkent Universitetində həmin universitetin rektoru, professor Abdullah Atalarla görüşdülər. Görüşdə Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli iştirak etdi.

Görüş zamanı H. İsaxanlı Xəzər Universitetində həyata keçirilən beynəlxalq layihələr, fakültələr, digər proqramlar haqqında, N. İsayeva isə "Dünya" məktəbi və IB School haqqında geniş məlumat verdilər. N. İsayeva, həmçinin, "Dünya" məktəbi ilə Bilkent Universitetinin nəzdindəki orta məktəbin birgə həyata keçirdiyi proqramlardan, hər iki məktəbin arasında olan geniş əlaqələrdən danışdı. N. İsayeva A. Atalarl "Dünya" məktəbinə dəvət etdi.

Sonda H. İsaxanlı A. Atalara və Tarix Bölüm Başqanı, professor Mehmet Kalpaklıya hədiyyə təqdim etdi. Xatirə şəkilləri çəkildi.

# RECTOR NIKNAFS HOSTS THE ESTONIAN CHARGE D'AFFAIRES



On November 25, Dr. Hassan Niknafs, the Rector of Khazar University, hosted Charge d'Affaires Mr. Indrek Kiverik, the Head of the Office of the Embassy of Estonia in Baku. Charge d'Affaires Mr. Indrek Kiverik informed the Rector about the progress Estonia has made as a country in the Information and Communications Technology sector. He informed the Rector about the particular role of information technology in the Estonian government and also gave some information about the existing cooperation between Estonia and Azerbaijan. Later, the participants discussed ideas for possible cooperation between Khazar University and Estonian universities in academic and student exchange as well as the opportunities offered by the Khazar University Technopark.

## "ŞƏRQ" QƏZETİNDƏ HAMLET İSAXANL İLƏ MÜSAHİBƏ

Dekabrın 3-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının "Şərq" qəzetinin internet səhifəsində müsahibəsi yayınlanmışdır. Müsahibə universitetdə imtahanların daha təkmil formada keçirilməsi, imtahan zamanı tələbələrin bir-birindən köçürməsinin qarşısının alınması və s. məsələlərə həsr olunmuşdur.

Müsahibəni bu linkdə oxumaq olar:

*http://www.sherg.az/site/id-12738/Abituriyentlər_daha_bir-birindən_köçürə_bilməyəcək#Kalibri*

(*Müsahibə jurnalın 10-cu səhifəsində dərc olunur*).

## "ƏDALƏT" QƏZETİNDƏ TƏLƏBƏMİZİN MƏQALƏSİ

"Ədalət" qəzetinin 3 dekabr 2015-ci il tarixli nömrəsində Xəzər Universitetinin Humanitar və sosial elmlər fakültəsinin ikinci kurs tələbəsi Şəbnəm Behbudzadənin milli qəhrəman Mübariz İbrahimova həsr olunmuş "Hamıya nümunə ömür" adlı məqaləsi çap olunmuşdur.

Məqaləni bu linkdə oxumaq olar:

*http://www.adalet.az/w83033/_HAMIYA_NÜMUNƏ_ÖMÜR/#Kalibri.*

(*Məqalə jurnalın 30-cu səhifəsində dərc olunur*).

**PROFESSOR**

# HAMLET İSAXANLI



## ABİTURİYENTLƏR DAHA BİR- BİRİNDƏN KÖÇÜRƏ BİLMƏYƏCƏK

***"TQDK deyirsə ki, variant üsulu ləğv ediləcək, görünür, mümkün köçürmələrin qarşısını ala biləcək, bunun üçün yəqin vasitələri var"***

Tələbə Qəbulu üzrə Dövlət Komissiyası buraxılış və qəbul imtahanlarında yenilik etməyə hazırlaşır. Bura imtahan sual kitabçalarının yeni sistemlə çapı daxildir. Söhbət variant üsulunun ləğvindən gedir. TQDK-dan yeniliklə bağlı bildirilib ki, test tapşırıqlarının hazırlanmasında yeni qaydalar tətbiq oluna bilər. Yeni çap prosesində insan faktoru tamamilə aradan qaldırılır, sual kitabçaları çap olunduqdan sonra imtahanların keçirildiyi zallar üzrə paketlənir və binalar üzrə qutulara yığılır.

Sistem avtomatik işləyir, hətta suallar və cavablar da avtomatik yer dəyişdirə bilir. Əvvəlki qayda ilə hazırlanan variantlara artıq ehtiyac qalmır. Bu yenilik tətbiq edilərsə, imtahanlarda köçürmə hallarının minimuma endirilməsi təmin ediləcək. Yeni sistemlə çap olunan sual kitabçalarında eyni zamanda abituriyentlər haqqında açıq və kodlaşdırılmış məlumat da öz əksini tapır. Bu isə yazılı tapşırıqların tətbiqinə imkan verir.

***Yeniliyi şərh edən "Xəzər" Universitetinin Direktorlar və Qəyyumlar Şurasının sədri, professor Hamlet İsaxanlı "Şərq"ə açıqlamasında çoxvariantlılığın köçürmələrin qarşısını almaq məqsədilə tətbiq edildiyini bildirdi:***

- İmtahanlarda çoxvariantlılığın əhəmiyyəti böyükdür. Tapşırıqlar bir neçə variantda verilir ki, abituriyentlər biri-birindən köçürməsin. Çünki bir variant olanda abituriyentlər biri-birinə kömək edə, biri-birindən köçürə bilər. Bunun qarşısını almaq üçün çoxvariantlığa üstünlük verilir. TQDK deyirsə ki, variant

üsulu ləğv ediləcək, görünür, mümkün köçürmələrin qarşısını ala biləcək, bunun üçün yəqin hansısa vasitələri var. Bəlkə də bu işi kompüter özü görəcək. Kompüter özü variantları dəyişir. Ya köçürmənin qarşısını alaraq hamıya eyni variant verilir, ya da hərəyə bir variant göndərilir, hərənin də öz cavabı olur. Məncə, ikinci variant daha yaxşıdır. Kompüterdə əvvəlcədən cavablar yerləşdirilə bilər. Abituriyentin verdiyi cavaba uyğun olaraq da qeydə alınar. Amma burada, məsələn, esselərin yazılmasında problem ola bilər. Çünki esselərin keyfiyyətinin kompüter vasitəsilə yoxlanması mümkün deyil.

***H.İsaxanlı TQDK-nın yeniliklərini müsbət hesab etsə də, ümumilikdə qəbul imtahanlarının keçirilmə qaydasından narazı olduğunu dedi:***

- Mən həddindən artıq mərkəzləşdirilmiş qaydada imtahanların keçirilməsini düzgün saymıram. İmtahanlar üçün ildə bir dəfə və yalnız bir gün təyin edilir. Həmin gündə abituriyentin, məsələn, başı ağrıya bilər və o, cavabları düzgün yazmaqda çətinlik çəkər. Yalnız bir gün imtahan verirlər və bu bir gün insanın bütün gələcək taleyini həll edir. Dünyada bu qaydalar çoxdan dəyişib. Universitetlər özü abituriyenti yoxlayır. İmtahanlar ikimərhələli keçirilir. Birinci mərhələdə abituriyentin oxumaq, yazmaq, riyazi bilikləri yoxlanır (bu, testlərlə ola bilər). Əsas isə ikinci mərhələdir. İkinci mərhələdə insanın şəxsiyyəti - onun təfəkkürü, dünyagörüşü, baxışları, hisslərini, istəklərini ifadə etmək bacarığı yoxlanır. Və universitetlər daha çox bu ikinci mərhələnin nəticələrini üstün sayırlar, bu nəticələri əsas götürürlər. Bizdə bu sistemin tətbiqi hələ ki, real görünmür. Bunun öz obyektiv və subyektiv səbəbləri var.

**Məlahət Rzayeva**
*"Şərq"qazeti*
*03.12.2015*
***http://www.sherg.az/site/id12738/Abituriyentlar_daha_bir_birindən_köçürə_bilməyəcək#Kalibri.***

## ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTUNUN ƏMƏKDAŞI "XƏZƏR"DƏ

Noyabrın 26-da Tarix və arxeologiya departamentinin dəvəti ilə AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı, fəlsəfə doktoru Təvəkkül Əliyevin Humanitar və sosial elmlər fakültəsi və Təhsil fakültəsinin tələbələri ilə görüşü təşkil edildi. Təvəkkül Əliyev Azərbaycan Albaniyasının tarixindən bəhs edən "Alban şəhərinin izi ilə" mövzusunda çıxış etdi.

Tədbiri giriş sözü ilə Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova açdı. Tədbirdə departamentin müəllimləri Ülviyyə İbrahimova və Günay Novruzova, Azərbaycan dili və ədəbiyyatı departamentinin müdiri Vurğun Əyyub da iştirak edirdilər.

Təvəkkül Əliyev çıxışı zamanı özünün bilavasitə başçılığı ilə həyata keçirilmiş Qalakənd arxeoloji qazıntıları haqqında geniş məlumat verdi və Alban mədəniyyətinin qorunması və təbliğinin vacibliyini xüsusi vurğuladı.

## 1NEWS.AZ - IN MƏZUNUMUZ NODAR ŞAŞIQOĞLU İLƏ MÜSAHİBƏSİ

1news.az xəbər portalında noyabrın 30-da məzunumuz – dizayn işləri ilə məşğul olan ADDA Project Design şirkətinin icraçı direktoru Nodar Şaşıqoğlu ilə müsahibə dərc edilmişdir. N. Şaşıqoğlu Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin iqtisadiyyat ixtisası üzrə məzunudur.

Müsahibədə yüksək texnologiyanı və təbiətə yaxınlığı özündə ehtiva edən dizayn işindən bəhs edilir. Müsahibəni bu linkdə oxumaq olar:

http://1news.az/interview/20151130111704767.html#Kalibri

*(Müsahibə jurnalın 34-cü səhifəsində dərc olunur).*







# XƏZƏR UNİVERSİTETİNDƏ BEYNƏLXALQ ƏLİLLƏR GÜNÜ MÜNASİBƏTİLƏ TƏDBİRLƏR

Dekabrın 3-də Xəzər Universitetinin "Əlilliyi olan Tələbələr üçün Mərkəz"i 3 Dekabr – Beynəlxalq Əlillər Günü münasibətilə silsilə tədbirlər təşkil etdi.

Əvvəlcə saat 10:00-da universitetin əsas binasının girişində "Əlillik barəsində maarifləndirmə" adlı tədbir keçirildi. Tədbir zamanı universitetin tələbə və işçi heyətinə əlilliyi olan şəxslər barəsində müxtəlif mövzulu videoçarxlar göstərildi, bukletlər paylanıldı və Xəzər Universitetinin əlilliyi olan şəxslərin ali təhsil müəssisələrinə inteqrasiyası sahəsində gördüyü işlər və layihələr haqqında geniş məlumat verildi.

Saat 12:00-da Xəzər Universitetinin "Əlilliyi olan Tələbələr üçün Mərkəz"inin və Beynəlxalq Əlillər Cəmiyyəti İctimai Birliyinin təşkilatçılığı, Bacarıqlı Əllər Dünyası İctimai Birliyi və 1 saylı Psixiatriya Xəstəxanasının iştirakı ilə "Mərmər" salonda geniş tədbir keçirildi. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı tədbiri açıq elan etdi. Kubanın Azərbaycandakı səfiri Omar Madina, Ombudsmanın Əlilliyi olan şəxslər üzrə müşaviri Müqalib Mahmudov, Nizami RİH-nin şöbə müdiri Əli Axundov, Səhiyyə Nazirliyinin Psixi Sağlamlıq Mərkəzinin direktoru Fuad İsmayılov, 1 saylı Psixiatriya Xəstəxanasının şöbə müdiri Orxan Cəfərov tədbirdə çıxış etdilər.

Tədbir zamanı əlilliyi olan istedadlı insanların əl işlərindən ibarət sərgi və əlilliyi olan insanlarla bağlı 3 dəqiqəlik film nümayiş etdirildi. 1 saylı Psixiatriya Xəstəxanasının xəstələrindən ibarət Pantomim teatrının çıxışı və müxtəlif xalqların rəqslərindən ibarət konsert təşkil olundu. Xalq artisti, "Şöhrət" ordenli məşhur muğam ustası Mənsum İbrahimovun tələbələri - "Muğam-2015" müsabiqəsinin qalibləri Sədəf Budaqova və Elgiz Əliyev, Beynəlxalq Əlillər Cəmiyyəti İctimai Birliyinin üzvləri – müğənni, 1-ci qrup əlil Murad Sadıx, 3-cü qrup əlil Cavid Gözəlov və onun dostları, 1-ci qrup gözdən əlil Allahverdi Əhmədov mahnı ifa etdilər.










Tempus

## SERIES OF EVENTS FOR INTERNATIONAL DAY OF PERSONS WITH DISABILITIES








On December 3rd, Khazar University's Center for Students with Disabilities held several events to celebrate International Day of Persons with Disabilities.

First, at 10:00, an event entitled "Raising Awareness about Disabilities" was held in the university's main entrance. During the event, videos were shown to university students and staff about people with disabilities, booklets were distributed, and information was shared about the work Khazar University is doing to help people with disabilities integrate into higher education.

Then at 12:00, a large event will be held in the university's Marble Hall in cooperation with the Khazar University Center for Students with Disabilities, International Public Union of Disabled People, the World of Talented Hands Public Union, and the Psychiatric Hospital number 1. Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, opened the event. Other speeches were made by Mr. Omar Madina, the Ambassador Extraordinary and Plenipotentiary of Cuba to Azerbaijan; Mugalib Mahmudov, Advisor to the Ombudsman for works related to disabilities; Ali Akhundov, Division Director of the Nizami District Executive Body; Fuad Ismayilov, Director of the Psychological Health Center of the Ministry of Health; and Orkhan Jafarov, Division Manager for the Psychiatric Hospital number 1.

The event included an exhibition of handicrafts made by people with disabilities, and a 3-minute film about people with disabilities was shown. The event also included a concert with a pantomime theater performed by patients of Psychiatric Hospital number 1 and dances from various nations. Performances were also given by the students of People's Artist Mansum Ibrahimov including Sadaf Budagova and Elgiz Aliyev, winners of the Mugham 2015 competition, and members of the International Society of Disabled People Murad Sadikh, Javid Gozelov and his friends, and Allahverdi Ahmadov.





# ROBOT TEXNOLOGİYASINA AİD SEMİNAR

Dekabrin 3-də Xəzər Universitetində Kompüter elmləri departamenti tərəfindən Robotexnika seminarı təşkil edildi. Seminarın əsas məqsədi robot texnologiyası və onun proqramlaşdırılması haqqında qısa məlumat vermək idi.

3 hissədən ibarət olan bir günlük seminar robot sahəsinin bir neçə aspektinə aid idi. Təlimi professor Hamid D.Tağirad, Babək Sistani və Məhəmməd Fərəhi (İranın X.N.Tusi Texnologiya Universitetindən) keçirdilər.

Birinci hissə ***ARAS robotic*** qrupuna və onların işinə aid idi (Robot və avtomatlaşdırma sahəsində İran institutu). İkinci hissə isə Robot hazırlamağa kömək edən robot əməliyyat sistemlərinə (ROS) (Bu, bir meta əməliyyat sistemidir və bir çox proqram təminatının kitabxanası ona daxildir) aid idi.

Sonuncu hissə Haptic texnologiyasına həsr olunmuşdu. Təqdimatda müxtəlif Haptic cihazların növü şərh edildi və onların strukturu üzrə sinifləndirildi.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyumlar Şurasının sədri professor Hamlet İsaxanlı da tədbirdə iştirak etdi.





## FINNISH AMBASSADOR VISITS KHAZAR UNIVERSITY

On December 10, Mr. Christer Michelsson, Ambassador Extraordinary and Plenipotentiary of Finland to Azerbaijan, paid a courtesy visit to Khazar University. The Ambassador met with Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees; Dr. Hassan Niknafs, President of Khazar University; and Dr. Mukhtar Hajizada, the Head of the Department of Political Science and International Relations. The participants of the meeting had a conversation in which news and ideas were exchanged. The Ambassador was also informed about the achievements of Khazar University and its vision to play an important role in contributing to the research and technological development in the country.

## XƏZƏR UNİVERSİTETİNDƏ KEÇİRİLMİŞ TƏLİM KURSU HAQQINDA "AZƏRBAYACAN MÜƏLLİMİ" QƏZETİNDƏ MƏQALƏ ÇAP OLUNMUŞDUR

Xəbər verdiyimiz kimi ("Xəzər Xəbər"jurnalı, noyabr 2015-ci il və universitetin vebsaytı), Azərbaycan Respublikası Təhsil Nazirliyinin sifarişi ilə noyabrın 13-dən 22-dək Xəzər Universitetində ümumtəhsil pilləsində fənn kurikulumlarına uyğun "Dərsliklərin hazırlanması və qiymətləndirilməsi üzrə təlim kursu" keçirilmişdir. Kursun iştirakçılarından birinin – Bakı şəhəri 147 saylı texniki-humanitar liseyin tarix müəllimi, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi Gültəkin Məmmədovanın "Azərbaycan müəllimi" qəzetinin 5 dekabr 2015-ci il tarixli nömrəsində "Dərsliklərlə bağlı təlimdən çox razı qaldıq" adlı məqaləsi çap olunmuşdur. Məqaləni bu linkdə oxumaq olar:

*http://www.muallim.edu.az/arxiv/2015/45/39.htm#Kalibri*

*(Məqlə jurnalın 19-cu səhifəsində dərc olunur).*




## HAMLET İSAXANLININ "BİLQAMEŞ" DASTANI HAQQINDA MÜHAZİRƏSİ

Dekabrın 9-da Tarix və arxeologiya departamentinin müdiri, fəlsəfə doktoru Roza Arazovanın "Sivilizasiya tarixi" dərsində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı iştirak etdi. Tarix və digər ixtisaslarda təhsil alan tələbələrlə yanaşı, universitet əməkdaşlarının da iştirak etdikləri dərsdə H.İsaxanlı "Bilqameş" dastanı haqqında mühazirə ilə çıxış etdi.

Dərsin əvvəlində R. Arazova "Bilqameş dastanı"nın tələbələrin çox böyük diqqətinə səbəb olduğunu bildirdi və dəvəti qəbul etdiyi üçün Hamlet İsaxanlıya təşəkkürünü bildirdi.

H. İsaxanlı mühazirəsində şumerlərin tarixi, mədəniyyəti, mədəniyyət tarixindəki yeri, Şumer xalqının tarixinin araşdırılması ilə bağlı tədqiqatlar və sonuncu tapıntılar barədə geniş məlumat verdi. Eyni zamanda, bildirdi ki, bu sahədə tədqiqatlar başa çatmayıb və dastanın hələ də elmə məlum olmayan hissələri mövcuddur. Sonra H. İsaxanlı dastanın məzmununu danışdı, dastanı ətraflı təhlil etdi.

H. İsaxanlı sonda tələbələrin suallarını cavablandırdı və tələbələrin marağına səbəb olan hər hansı mövzu ilə bağlı mühazirə deməyə hazır olduğunu bildirdi.

## MBA DİREKTORU "PEARSON" NƏŞRİYYATINA RƏYÇİ SEÇİLDİ

Xəzər Universitetinin MBA proqramı üzrə direktoru Ramin Ələkbərov nüfuzlu beynəlxalq Pearson şirkətinin dərc etdiyi "Əməliyyatların idarə edilməsi" və "Audit və əminlik xidmətləri" dərsliklərinin təkmilləşməsi və inkişafı üzrə rəyçi seçilmişdir.

Pearson Beynəlxalq Nəşrləri proqramının əsas hədəfi dərc etdikləri ABŞ dərs vəsaitlərinin daima inkişaf edən beynəlxalq təhsil bazarına uyğunluğunu, asanlıqla əldə edilə bilən olmasını və yerli xüsusiyyətlərə münasibliyini təmin etməkdir. Öz elmi sahələrinin mötəbər ekspertləri olan Pearson müəlliflərinin kitabları Asiya, Avstraliya, Avropa, Yaxın Şərq və Birləşmiş Krallıq da daxil olmaqla bütün dünyada tələbələr və müəllimlər tərəfindən istifadə olunur.

## «АЗЕРБАЙДЖАНСКИЕ ИЗВЕСТИЯ»
## QƏZETİNDƏ İSAXAN İSAXANLI İLƏ MÜSAHİBƏ

*«Азербайджанские известия»* qəzetinin 25 noyabr 2015-ci il tarixli nömrəsində Xəzər Universitetinin prorektoru, yeseninşünas tədqiqatçı, fəlsəfə doktoru İsaxan İsaxanlı ilə müsahibə dərc olunmuşdur. Müsahibənin müəllifi qəzetin əməkdaşı Firəngiz Xancanbəyovadır.

Müsahibəni bu linkdə oxuya bilərsiniz: *http://www.azerizv.az/news/a-20449.html*

(*Müsahibə jurnalın 24-cü səhifəsində dərc olunur*).

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN MÜƏLLİMİ
AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİNİN ORQANI

# DƏRSLİKLƏRLƏ BAĞLI TƏLİMDƏN ÇOX RAZI QALDIQ

**13-22 NOYABR 2015**



Nəzərə alsaq ki, dərslik problemi hətta bütün ailələrdə müzakirə olunan bir məsələdir, onda 13-22 noyabr 2015-ci il tarixdə Xəzər Universitetində Təhsil Nazirliyinin keçirdiyi "Dərsliklərin hazırlanması və qiymətləndirilməsi" təliminin nə qədər aktual olduğu aydın görünər. Təlim iştirakçısı kimi bəzi fikirlərimi həmkarlarımla bölüşmək istəyirəm.

Nəzərə alsaq ki, dərslik problemi hətta bütün ailələrdə müzakirə olunan bir məsələdir, onda 13-22 noyabr 2015-ci il tarixdə Xəzər Universitetində Təhsil Nazirliyinin keçirdiyi "Dərsliklərin hazırlanması və qiymətləndirilməsi" təliminin nə qədər aktual olduğu aydın görünər.

Müəllim baxımından həmişə şanslı olmuşam. Bakı Dövlət Universitetinin, Moskva Dövlət Universitetinin ən nüfuzlu müəllimlərindən dərs almışam. Xətai rayon 147 nömrəli texniki-humanitar liseyində isə dünya şöhrətli alim, akademik Azad Mirzəcanzadədən öyrənmək nəsibim olub. Sözügedən təlimdə isə mən Türkiyədən gəlmiş Ankara Qazi Universitetinin müəllimi, dosent doktor Salih Şahinlə tanış oldum. 25 illik bir təcrübəyə malik olan çox məsuliyyətli, dərin bilik sahibi, öz peşəsini sevən bu insan "İdeal dərsliklər necə olmalıdır?", "Şagirdlərdə bacarıqların formalaşması üçün hansı üsullar daha çox effekt verir?", "Şagirdi təlim prosesinin komponentinə necə çevirmək olar?" kimi məsələləri bizə öyrətməyə çalışdı. Yorulmadan, həvəslə bizimlə məşğul oldu. Nəzərə alsaq ki, təlim gündə 5 saat davam edirdi, bu bizi yormadı, zövq aldıq, təlimin sonunda isə hamımız kədərləndik.

Salih hocadan "Qiymətləndirmə üçün ekspertdən əsasən nə tələb olunur?" sorğuma - "Vicdan", deyə cavab verən bu müəllim təkcə peşəsinin aşiqi deyil, həm də hansı əqidə sahibi olduğunu sübut etdi.

Təlimdə hamımızın ən çox maraqlandığı sahələrdən biri də dərsliklərimizin Avropa-Türkiyə dərslikləri ilə müqayisəsi oldu. Yeri gəlmişkən, bu arada Yaponiya dərslikləri ilə də tanış ola bildik. Səmimi olaraq qeyd edim ki, son dövrlər dərsliklərimizdəki irəliləyişlər danılmazdır, amma problemlərimiz də var.

Mən Azərbaycanımla fəxr edirəm və arzulayıram ki, bizim övladlarımız da məhz belə sadə, rəngarəng, inkişafetdirici dərsliklərə sahib olsunlar. Düzdür, bu, çətindir, amma mümkündür. Çətinliklərimizi anlayıram, lakin bu təlimdən bəhrələnən müəllimlər problemlərin öhdəsindən gəlmək iqtidarındadırlar. Mən inanıram ki, biz qarşımıza qoyulan məqsədə - dünyanın ən inkişaf etmiş dövlətlərində istifadə olunan dərsliklər nümunəsində dərsliklər hazırlanmasına nail olacağıq, çünki bu sahədə bizi dəstəkləyən dövlətimiz və öz işini bilən müəllimlərimiz var.

Sonda bütün təlim iştrakçıları adından layihəni hazırlayan Təhsil Nazirliyinə və Xəzər Universitetinə dərin təşəkkür edirik. Ankara Qazi Universiteti egitim fakültəsinə, Coğrafiya Egitimi rəhbərliyinə Salih hoca kimi bir insanla tanış olmağımıza şərait yaratdıqlarına görə sonsuz minnətdarlığımızı bildiririk.

**Güntəkin Məmmədova,**
*Bakı şəhər 147 nömrəli texniki-humanitar liseyin tarix müəllimi, "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi*











## LAYİHƏ İDARƏETMƏ MƏKTƏBİNİN BURAXILIŞ MƏRASİMİ

Dekabrın 9-da BP-nin iqamətgahında BP və *ESI-International*-ın birgə layihəsi olan və hazırda Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən Layihə İdarəetmə Məktəbinin (LİM) 4-cü buraxılış mərasimi oldu. Tədbirdə 200 nəfərə yaxın qonaq iştirak edirdi. Onların arasında BP, BP-nin tərəfdaşları, Xəzər Universitetinin əməkdaşları və ESI-dan yüksək vəzifəli qonaqlar, həmçinin, 90-a yaxın məzun var idi.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı tədbirdə çıxış edərək, tərəfdaşlara təşəkkürünü bildirdi və məzunları təbrik etdi.



## SCHOOL OF PROJECT MANAGEMENT GRADUATION

On December 9, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, participated in the 4th Graduation Ceremony for the School of Project Management (SPM), a joint project of BP, ESI International, and Khazar University. Around 200 guests attended the ceremony, including representatives from BP and its stakeholders, Khazar University, and ESI as well as almost 90 graduates.

Professor Hamlet Isaxanli made a speech to thank the stakeholders and congratulate all the graduates.

# XƏZƏR UNİVERSİTETİNDƏ ƏMƏK YARMARKASI












Dekabrın 11-də Xəzər Universitetinin Mərmər salonunda “Karyerada ilk addım” devizi ilə Respublika Əmək Yarmarkası keçirildi. Yarmarka Respublika Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən təşkil edilmişdi. Yarmarkanın açılışında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Dövlət Məşğulluq Xidmətinin respublika və rayon şöbələrinin rəhbərləri, Xəzər Universitetinin rektoru professor Hassan Niknafs iştirak edirdilər. Əmək yarmarkasına çoxlu sayda Bakı sakini də qatılmışdı.

İşəgötürənlərin nümayəndələrinin də iştirak etdiyi tədbirdə tələbə və məzunlara əmək bazarındakı mövcud vəziyyət, peşə və ixtisaslara olan tələbat barədə məlumatlar verilib. Tədbir zamanı 7-si dövlət, 45-i özəl sektora aid 52 müəssisə tərəfindən 345 boş (vakant) iş yeri də təqdim edilib.

Tələbə və məzunlara boş iş yerlərinə göndərişlər verilməklə, onlardan əlavə təhsil kurslarına cəlb olunmaq, boş vaxtları ərzində müvəqqəti xarakterli, mövsümi işlərdə çalışmaq istəyənlər qeydiyyata götürülüb. Həmçinin idarə, müəssisə və təşkilatların nümayəndələri tələbə və məzunlarla ünsiyyətdə olaraq, gələcəkdə müasir tələblərə cavab verən ixtisaslı kadrların seçimini aparmaq üçün onlardan şəxsi məlumatlar əks olunan CV-lər qəbul ediblər.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və yarmarkanın təşkilatçıları ilə görüşdü. Nazirliyin rəhbərliyi H.İsaxanlıya və universitet rəhbərliyinə yarmarkanın keçirilməsi üçün yaradılmış şəraitə görə dərin təşəkkürünü bildirdi. H.İsaxanlı da respublika əhəmiyyətli tədbirlərin keçirilməsinə hər zaman dəstək verəcəyini təşkilatçıların diqqətinə çatdırdı.

Əmək yarmarkası respublika televiziya kanalları ilə və mətbuatda geniş işıqlandırıldı.









# ИСАХАН ИСАХАНЛЫ

# «ПОЭЗИЯ ЕСЕНИНА БУДЕТ ЖИТЬ В МОЕЙ ДУШЕ ВСЕГДА»

*В дни празднования 120-летнего юбилея великого русского поэта Сергея Есенина доктор философии по педагогическим наукам Исахан Исаханлы, проректор университета «Хазар», был удостоен двух престижных наград — Международной литературной премии имени С.Есенина за книгу «Незадаром ему мигнули очи. Есенин в Баку» и учрежденной рязанским правительством премии имени С.Есенина за книгу переводов «S.Esenin. İran neğmeleri» (С.Есенин. «Персидские мотивы»). Обе книги — плод многолетнего, кропотливого труда и поиска неизвестных документов, свидетельств пребывания Сергея Есенина в Баку. Об этом и многом другом — в беседе Исахана ИСАХАНЛЫ с корреспондентом «Азербайджанских известий» Франгиз ХАНДЖАНБЕКОВОЙ*

**— Вторая книга «С.Есенин. Персидские мотивы» вышла в этом году. Расскажите о ней, в чем ее ценность?**

— Она подготовлена мной к 120-летнему юбилею Сергея Есенина. В книгу включены все известные на сегодня переводы на азербайджанский язык стихотворений, входящих в цикл «Персидские мотивы», занимающий особое место в любовной лирике Есенина. В ней азербайджанские читатели получают возможность познакомиться с различными интерпретациями, сравнить, сопоставить каждый перевод как между собой, так и с оригиналом. Одним словом, в книге создается целостная картина цикла «Персидские мотивы» на азербайджанском языке.

До сего дня на азербайджанский переведено 121 стихотворение Есенина в 236

вариантах, если считать и переводы одного и того же его стихотворения разными поэтами. Их было 29, причем трое из них — Алиага Кюрчайлы, Сиявуш Мамедзаде и Эйваз Борчалы — перевели полностью весь цикл.

**— А кто первым из азербайджанских поэтов занялся переводом стихов Есенина?**

— Сулейман Рустам — в 1928 году он перевел стихотворение «В Хорасане есть такие двери». После этого долгие годы поэзия Есенина была под официальным запретом. В 1955 году в преддверии его 60-летия известный поэт-песенник Алекпер Зиятай перевел стихотворение «Прощай, Баку», и лишь через десять лет, к 70-летию со дня рождения великого поэта, увидел свет большой сборник его стихов на азербайджанском языке. Автором перевода был Алиага Кюрчайлы. Он еще дважды к каждому очередному юбилею переиздавал эту книгу, включая в нее свои новые работы. Алиага Кюрчайлы по сей день считается лучшим переводчиком поэзии Есенина на азербайджанский язык. В своем выступлении во время награждения я сказал, что свою премию посвящаю замечательному азербайджанскому поэту Алиаге Кюрчайлы, потому что именно он своей работой пробудил во всех нас любовь к есенинской поэзии.

**— Остались какие-либо воспоминания Кюрчайлы о том, как он работал и чем его привлекла поэзия Есенина?**

— Да, сохранились. Его супругой была дочь знаменитого ханенде Джаббара Гарьягды оглу, который в 1925 году познакомился с Сергеем Есениным на одной дружеской вечеринке. В том же году, когда здесь был Есенин, в Баку приезжал командарм Михаил Фрунзе. Он пробыл в городе день-два, затем поехал в Тифлис и оттуда вновь вернулся в Баку. Когда он уезжал, в его честь был организован вечер, на который был приглашен и Есенин. На подобных торжествах, как правило, выступал и Джаббар Гарьягды оглу. Так что встреча двух этих отмеченных божьим даром людей, видимо, не была случайной. Известно, что Есенин был настолько покорен певческим талантом азербайджанского ханенде, что назвал его «пророком музыки Востока». Он экспромтом прочел посвященное ему стихотворение, которое, к сожалению, не сохранилось. О самом факте знакомства двух этих великих людей в Азербайджане стало известно благодаря журналисту Воронскому, сопровождавшему Фрунзе в поездке. Об этом он рассказал во вступительной статье к трехтомнику стихов Есенина, изданному в Москве в 1926 году. Джаббар Гарьягды оглу оказался единственным азербайджанцем из мира литературы и искусства, кто встречался с великим поэтом во время его пребывания в Баку. Более подробно я рассказал об этом в книге «Неповторимый цветок поэзии. Сергей Есенин», изданной в 2010 году на азербайджанском языке. Ее название я взял из есенинского стихотворения, где он сам себя назвал неповторимым цветком, — и был прав.

**— А когда вы сами «заболели» Есениным?**

— Мое детство прошло в Грузии. Я учился в сельской школе. Естественно, в деревне русский знали плохо, но я любил этот язык и самостоятельно изучал, разучивая маленькие стихотворения в 2-3 куплета. Так мне было легче запомнить. 1 сентября, когда я учился в шестом классе, в школу пришел новый учитель русской словесности и, видимо, для того, чтобы иметь представление об уровне знаний своих учеников, задал всему классу общий вопрос: «Кто сможет прочесть стихотворение на русском языке?». Тогда мне как раз в руки попал изданный Петром Чагиным в 1946 году сборник стихов Есенина, и там было стихотворение «Ты сказала, что Саади целовал лишь только в грудь...», которое я выучил наизусть.

Пользуясь случаем, я поднял руку и с чувством прочел его, стоя у доски. Я думал, что учитель сейчас подойдет и погладит меня по голове и я стану лучшим его учеником. Он, действительно, подошел, встал напротив меня и вдруг из всех сил ударил по лицу. Никто не понял, что случилось, все были в шоке, а он повернулся к ученикам и, показывая на меня рукой, сказал со злостью: «Вы на него посмотрите, учится в шестом классе, а уже в грудь целует». Я, конечно, был потрясен, но эту пощечину, полученную от учителя, считаю своей первой премией за Есенина, она как бы послужила основой моего особого внимания, любви к его поэзии, своеобразной отметиной на всю жизнь.

**— А кто вы по первоначальному своему образованию?**

— Математик. Я окончил механико-математический факультет БГУ и после его окончания уехал по распределению в Россию, в Ульяновск. Проработав как молодой специалист три года в НИИ, вернулся в Баку. Защитил кандидатскую диссертацию в области педагогики, в частности по проблемам высшего частного образования в Азербайджане, а сейчас завершаю докторскую диссертацию на тему «Есенин и Азербайджан».

**— Совершенно разные направления...**

— Да, это три направления моей жизни. Первое — математика, второе — область управления и образования и третье — литература.

**— А стихи пишете?**

— Нет, я занимаюсь только переводами, если не считать детские пробы.

**— Каковы были отзывы специалистов о ваших книгах, что более всего заслужило их высокую оценку?**

— Дело в том, что о Есенине, его творчестве написано много статей, отдельных исследований, но фундаментальных трудов о его бакинском периоде не было. Моя книга «Незадаром ему мигнули очи. Есенин в Баку» — первая монография, в которой он отражен в полной мере, дается много новой, никому ранее не известной информации. Она также богато иллюстрирована редкими фотографиями, публикуемыми впервые, в том числе и квартиры, в которой неоднократно бывал Есенин, навещая своих бакинских друзей. Большую ценность представляет и включенный в книгу рассказ хозяйки исторической квартиры Ирины Георгиевны Трофимовой. Российские литераторы впервые и с интересом знакомились со всем этим материалом. Они даже не знали о существовании в Баку этой квартиры.

**— Вы впервые побывали на родине Есенина?**

— Нет, я бывал там неоднократно, а когда впервые ступил на эту землю, у меня слезы появились на глазах. Там, на этой земле все пронизано есенинским духом. Я побывал всюду, где он был, оставив свой памятный след. Посетил дом, где он родился, сидел на скамейке, где он сидел, обнимал дерево, которое он посадил, увидел калитку, возле которой он признавался в любви... Два года назад я принял участие в симпозиуме, посвященном его творчеству, на котором было принято решение возродить вишневый сад вокруг его дома. Я тоже вместе со всеми принял в этом участие, а в нынешнем году побывал там, чтобы посмотреть, прижилось ли посаженное мной дерево, и был рад, что оно стало уже выше меня ростом. В этом дереве — частица моей любви к Есенину, его поэзии, и они в моей душе будут жить всегда.

*http://www.azerizv.az/news/a-20449.html*
*«Азербайджанские известия»*
**25.11.15**



# XƏZƏR UNİVERSİTETİNDƏ PR SEMİNARI

"Akademi Group" şirkətlər qrupunun nəzdində fəaliyyət göstərən "Akademi PR Company" Azərbaycan Tələbə və Gənclər Təşkilatları İttifaqı ilə birgə dekabrın 9-da Xəzər universitetində ödənişsiz seminar keçirdilər. Seminarı Türkiyənin tanınmış PR mütəxəssisi, Beykent Universitetinin prorektoru professor Ebru Ural aparırdı.

Seminarı "PR akademiya"nın rəhbəri Nuranə Ağazadə açaraq, ölkənin ilk peşəkar PR Akademiyasının nəzdində yaradılan "PR-çı gənclər klubu"nun artıq istifadəyə verildiyini elan etdikdən sonra yaradılan şərait üçün "Akademi Group" şirkətlər qrupunun rəhbəri Murad Ağalarova təşəkkür etdi.

Seminarda gənclərə PR menecmentin sirlərindən, sosial layihələrin PR-nın təşkilindən danışan professor Ebru Ural ölkənin ilk yaradılan və təmənnasız şəkildə fəaliyyət göstərən PR Akademiya layihəsini alqışladığını və bu akademiyanın tələbələrinə dəstək olmağa hər zaman hazır olduğunu bildirdi.

Seminardan sonra Xəzər Universitetinin rektoru professor Hassan Niknafs Beykent Universitetinin prorektorunu və digər əməkdaşlarını qəbul etdi. Görüş zamanı hər iki universitet haqqında geniş məlumat verildi. Universitetlər arasında əməkdaşlığın və Mövlanə proqramı çərçivəsində əlaqələrin daha da genişləndirilməsinin vacibliyi vurğulandı. Ebru Ural H.Niknafsa dərin təşəkkürünü bildirdi və universitetin musiqi kollektivini konsert proqramı ilə çıxış etmək üçün Beykent Universitetinə dəvət etdi.

## PROREKTORUMUZ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ GÜNÜ ÇƏRÇİVƏSİNDƏ TƏŞKİL EDİLMİŞ TƏDBİRDƏ



Dekabr ayının 16-da Xəzər Universitetinin İdarəetmə və tələbə işləri üzrə prorektoru İsaxan İsaxanlı Moskva hökuməti tərəfindən Bakı Slavyan Universitetində beynəlxalq əməkdaşlıq günü çərçivəsində təşkil edilmiş «Moskva Bakıda: Mədəniyyət vasitəsilə təhsil və təhsil vasitəsilə mədəniyyət – XXI-ci əsrin formulu» mövzusunda "dəyirmi stol" tədbirində «Yesenin poeziyası – xalqlarımız və ədəbiyyatlarımız arasında ədəbi-mədəni körpü» mövzusunda çıxış etmişdir.

"Dəyirmi stol" tədbirində Moskvadan gəlmiş qonaqlar, Rusiyanın Azərbaycandakı səfirliyinin nümayəndələri, Azərbaycandakı rus icmasının rəhbərliyi, millət vəkilləri, ali məktəb nümayəndələri, media mənsubları və digər qonaqlar iştirak edirdilər.



NOVEMBER 24, 2015

## COLLEGE OF EUROPE REPRESENTATIVES VISIT KHAZAR



Department of Political Science and International Relations of Khazar University hosted representatives from the College of Europe (Natolin campus). Pawel Michalski, Senior Academic Assistant at the College of Europe, informed students about various educational opportunities offered on the postgraduate level. Then, Ms. Judyta Fiedin of the College of Europe and Dr. Mukhtar Hajizada, Chair of the Department of Political Science and International Relations, discussed prospects for institutional cooperation between Khazar University and the College of Europe and talked about the E-Platform for the Neighborhood and its open source distance learning courses.

## 'INSTRUCTORS ARTICLE ACCEPTED FOR INTERNATIONAL CONFERENCE ON ENERGY SYSTEMS

Mehdi Zarei, an instructor in the Chemical and Petroleum Engineering Department, submitted a technical article which was accepted to the International Conference on Energy Systems which will be held from December 23 to December 25, 2015 in Istanbul, Turkey.

The article, titled "Energy Saving and Enhancement of Stabilizer unit capacity using Pinch Technology," focuses on an investigation of a new method for energy saving systems in Shiraz Refinery.

Pinch Technology is a complete methodology derived from simple scientific principles by which it is possible to design new plants with reduced energy and capital costs as well as determining where the existing processes require modification to improve performance.

Further information about the conference can be found on the following link:

*https://www.kongresistemi.com/ices2015/*



## "ÇİN MƏDƏNİYYƏTİNDƏN İNCİLƏR"

Noyabrın 24-də Kitabxana-İnformasiya Mərkəzində (KİM) əməkdaşların təşkil etdiyi "Çin mədəniyyətindən incilər" adlı tədbir keçirildi. Tədbirdə Konfusi İnstitutunun əməkdaşları, ADA Universitetin-dən, ADİU-dan qonaqlar və Xəzər Universitetinin müəllim və tələbə heyəti iştirak edirdilər.

Qədim Çin mədəniyyətinə həsr olunmuş tədbirdə kalliqrafiya rəsmləri, rəqslər, şeirlər və mövzuya uyğun təqdimatlar da nümayiş olundu. Sonda tədbir iştrakçıları KİM-də yerləşən "Çin guşəsi" sərgisi ilə tanış oldular.

## "PEARLS OF CHINESE CULTURE" EVENT

On November 24, an event entitled "Pearls of Chinese Culture" was held in the Khazar University Marble Hall with the coordination of the Library and Information Center (LIC). Participants included representatives of the Confucius Institute, ADA University, and Azerbaijan State Economics University as well as students and instructors from Khazar University. The event featured presentations of ancient Chinese culture such as calligraphy, dance, poetry and other displays. At the end of the event, participants viewed a Great Wall of China exhibition in the LIC.

ŞƏBNƏM BEHBUDZADƏ



*Xəzər Universitetinin Humanitar və sosial elmlər fakültəsinin ikinci il tələbəsi*



ƏDALƏT

BU BIR XALQ QƏZETIDIR

# HAMIYA NÜMUNƏ ÖMÜR

Qəhrəmanlar ölmür - deyiblər. Ömrünü xalqına, dövlətçiliyinə qurban verənlər əbədi yaşayır. Cavad xan, Mehdu Hüseynzadə, Hüseynbala Əliyev, Qafur Məmmədov...

Himnimizdə Vətənə xitabən deyilən "Səndən ötrü can verməyə cümlə qadiriz..." misrası yadıma düşür. Hər bir gəncin Vətən qarşısında içdiyi and onun ömrü necə yaşayacağını bildirir. Atam hərbçidir və mən hərbi andın mahiyyətini, bu andı içənlərin necə xidmət etdiyini bilirəm. Onu da bilirəm ki, milli mentalitetimizdə anda sədaqət var...

Vətəni sevmək azdı, Vətən naminə məqamında, lazım gələrsə şəhid olmağı da bacarmalısan. Mübariz İbrahimov kimi...

Qarabağda gedən döyüşlərdə yüzlərlə oğul şəhid olub. Hamısının xatirəsi hamımız üçün əzizdir. Onda nədən məhz Mübariz İbrahimovu xatırladım? Digər şəhidlərimiz kimi o da Vətənə xidmət edirdi, Vətən naminə döyüşürdü, canından Vətən üçün keçdi. O da digər yaşıdları kimi təhsil alıb, hərbi xidmətdə olub. O da hamı kimi ermənilərin Xocalıda faciə törətdiyini bilib. Anası xatırlayır ki, televizorda Xocalıdan veriliş gedəndə özünü saxlaya bilmirdi, hönkür-hönkür ağlayırdı.

Müharibədə döyüşlərdə şəhidlik də var. Əsgər bilir ki, döyüşdə şəhid də ola bilər. Ancaq döyüşür, Vətənə görə döyüşür, torpaqlarımız üçün döyüşür, ölümdən qorxmadan döyüşür. Ancaq Mübariz İbrahimov şəhidliyi özü seçmişdi. Vətən üçün seçmişdi, xidmətdə olan əsgərlərə, çağırışçılara

vəsiyyət kimi seçmişdi. Onun şəhidliyi sanki bizlərə deyir: Vətəni sevin, Vətən naminə candan keçməyi də bacarın...

Mübariz İbrahimov da digər yaşıdları kimi hərbi xidmətdə olmuşdu. O da hərbi and içmişdi, o da "canımdan da keçməyə hazıram" demişdi. Hərbi nizamnamələrin tələblərinə ciddi əməl edirdi, komandirlərin, zabitlərin əmr və göstərişlərini sözsüz yerinə yetirirdi. Xidmət yoldaşları sonra xatırlayacaqdılar ki, Mübariz hər kəlməbaşı Vətən deyirmiş, torpaq deyirmiş. "Torpaq, uğrunda ölən varsa, Vətəndi" sözlərini təkrarlayarmış.

Bir dəfə televizorda bir verilişə baxırlarmış. Kadrda qaçqın ana görünəndə alnını ovuşdurub, yanaqlarına göz yaşı süzülüb. Bircə kəlmə deyib: "Günahkarıq, ana, bizi bağışla..." Zərrəcə günahı olmasa da, o ananın bu günə düşməsində, hələ də ev-eşiyinə qayıda bilməməsində özünü də günahkar bilirmiş.

Tarixə dönən həmin gecədə nələr düşündüyünü kimsə bilməmişdi. Ürəyindən keçənləri heç kimə deməmişdi. Düşünürdü ki, nə etmək istədiyi bilinsə, buna imkan verməzlər.

Bəlkə də ermənilərin mövqeyinə getməyi, nifrətini gülləyə çevirib düşmənin başına ələməyi həmin gün qərara almışdı. Bu, həm qisas olacaqdı, həm də əsgərlərin döyüş ruhunu artıracaqdı. Sübut edəcəkdi ki, azərbaycanlı oğullar məqamında mübarizləşməyi bacarır, bunu özünə mənəvi borc bilir. Biləsuvardan əbədiyyətə gedən yol buna görə müqəddəsdi, buna görə xalqımızın ehtiramıyla əhatələnən yoldu.

Mübariz İbrahimov bilirdi ki, son nəfəsinəcən atışacaq, bu vaxt ərzində neçə düşmən öldürəcək. Öldürdüyü düşmənlərin sayı qədər azərbaycanlı ananın oğul itkisinin ağrıları, acıları yumşalacaq. Mübariz həmin anlarda şəhidlərin analarına oğul olmuşdu. Bu gün də həmin ehtiramla xatırlanır.

Mübariz İbrahimov çox duyğusal gənc idi. Həmsöhbətini inandırmağı bacarırdı. Torpaqlarımızın işğaldan azad ediləcəyi günün həsrətiylə yaşayırdı, gecələrini bu həsrətlə səhər eləyirdi. Bəlkə də son məktubunu, bu gün bütün gənclərin, bütün vətənsevərlərin həyat yolunu işıqlandırası məktubunu o gecələrin birində yazıb. Bu məktubu həyəcansız oxumaq mümkün deyil. 22 yaşlı oğulun vətənsevərliyindən, düşüncələrindən qürurlanırsan. Nə gizlədim, hətta ona həsəd də aparırsan. Belə bir oğulun şəhid olmasından yanıb yaxılırsan. O məktub biz gənclərin hər birinin hər gün oxumalı olduğu əsərdir. Bu məktub vətənsevərlik dərsliyidir:

"Canım atam və anam, məndən sarı darıxmayın, inşallah cənnətdə görüşəcəyik. Mənim üçün bol-bol dua edin. Vətənin dar günündə ürəyim dözmür. Allaha xatir bunu eləməliyəm. Ən azından ürəyim sərinlik tapar. İnşallah şəhid olana kimi bu şərəfsizlərin üstünə gedəcəyəm. Şəhid olsam, ağlamayın, əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim. Allaha ibadətlərinizi dəqiq yerinə yetirin. Çoxlu sədəqə verin. Seyid nəvəsi olaraq bunu eləməliyəm. Allah böyükdü, Vətən sağ olsun. Oğlunuz Mübariz. Haqqınızı halal edin".

Məktubun mətni, Mübariz İbrahimovun qəhrəmanlığı mənə qılıncıyla tarix yazmış qəhrəmanlarımızı xatırlatdı. O qəhrəmanları ki, tarixin müxtəlif çağlarında dövlətçiliyimizi xarici təsirlərdən qoruyub, xalqın adına, tarixi keçmişinə layiq sərkərdə olub. Mübariz İbrahimov gizir idi. Bu, onun hərbi rütbəsi idi. Ancaq onun ürəyinin rütbəsi generalmış. Şəhidliyindən sonra bildik. Kaş bütün əsgərlər, zamanında əsgər olacaq yeniyetmələr xalqını, Vətənini Mübariz İbrahimov kimi sevəydi!

O gecənin qürurunun şahidi Tərtərin Şaylı kəndi oldu. O gecə Mübariz İbrahimov ad-soyadlı bir oğul şəhid oldu, bu ad-soyadla əbədi yaşayacaq qəhrəman doğuldu. Elə bir qəhrəmanlıq ki, düşmənin gözünün odunu aldı, düşmənə bir daha anlatdı ki, Mübarizlər yetirən torpaqları işğalda saxlamağa gücü çatmayacaq. Çəkil get, getməsən, can itirəcəksən!..

Mübariz İbrahimovun Vətən sevgisi biz gənclərin hər birinə nümunədir. Biz də Vətəni onun kimi sevəcəyik, lazım gəlsə, biz də onun kimi şəhidliyimizə qənşər gedəcəyik. Oğlanlar da, qızlar da...

*http://www.adalet.az/w83033/_HAMIYA_NÜMUNƏ_ÖMÜR/#Kalibri.*

*03. 12. 2015*




# SEMINAR BY STATOIL SPECIALISTS

On November 26, a seminar was held at Khazar University as part of a lecture series on the application of new technologies in the fields of oil and gas exploration and development. The lecture series is offered through a partnership between the Khazar University Department of Petroleum Engineering and the Statoil Company. Associate Professor Gasham Zeynalov, Head of the Department of Petroleum Engineering, opened the seminar and spoke about the close working relationship between Statoil and the Department since 2012.

Then Karsten Stoltenberg, Azeri-Chirag-Guneshli and Baku-Tbilisi-Ceyhan Asset Manager for Statoil, spoke about Statoil's contributions in the area of developing technologies for extraction of petroleum resources from clay sediments. Finally Endre Ivarrud, Technical Manager at Statoil, made a presentation about "United States' Clay Revolution" stating that petroleum was first extracted from clay sediments in the USA and detailing the further development of this nontraditional petroleum technology.

The seminar was followed by discussions and question-and-answer sessions with students and instructors. Dr. Novruz Ahmadov, Geology-Geophysics Specialist at Statoil; Dr. Ali Useynov, Specialist for Conservation and Security; and Nigar Mammadova, Manager's Assistant, also participated in the event.







## QAFQAZDA SABİTLİK VƏ QEYRİ - SABİTLİK AMİLLƏRİNİN ÖYRƏNİLMƏSİ İLƏ ƏLAQƏDAR METODOLOJİ SEMİNAR

Noyabrın 26-da Avrasiya və Orta Şərq Araşdırmaları Mərkəzində "Cənubi Qafqazda sabitlik və qeyri - sabitlik amillərinin öyrənilməsi" (İSSİCEU) mövzusu ilə əlaqədar metodoloji seminar keçirildi. Mərkəzin direktoru Fərda Əsədov Avropa Komissiyasının ISSICEU layihəsi çərçivəsində tədqiqat planının metodoloji yanaşmalar və məsələlərini təqdim etdi. Layihə tədqiqatçıları Elvin Yusifli, Murad Nəsibov, Ariz Hüseynov və Bəxtiyar Aslanov toplanmış araşdırma materialları haqqında məlumat verdilər.

Sonra tədqiqat mövzuları müzakirə edildi.

## SEMINAR HELD AT CENTER FOR EURASIA AND MIDDLE EAST STUDIES

On November 26, 2015, a methodological seminar on the study of "Stability and instability factors in the South Caucasus" (ISSICEU) was conducted at the Center for Eurasia and Middle East Studies. Farda Asadov, Director of the Center, presented methodology approaches and challenges of the research plan supported within the ISSICEU project by European Commission. Research associates of the Center Elvin Yusifli, Murad Nasibov, Ariz Huseynov and Bakhtiyar Aslanov contributed to the discussion by highlighting research areas and field data from their individual research projects.

## ƏLİLLİYİ OLAN TƏLƏBƏLƏR ÜÇÜN MƏRKƏZİN KOORDİNATORU TƏLƏBƏLƏRLƏ GÖRÜŞDÜ

Noyabrın 27-də "Əlilliyi olan şəxslərin Azərbaycan ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması" (ESFIDIP) adlı Tempus layihəsinin meneceri və "Əlilliyi olan Tələbələr üçün Mərkəz"in koordinatoru Rima Məmmədova Xəzər Universitetinin Mühəndislik və tətbiqi elmlər fakültəsinin tələbələri ilə görüşdü. Görüş zamanı R. Məmmədova Tempus layihəsi və layihə çərçivəsində yaradılmış "Əlilliyi olan Tələbələr üçün Mərkəz" barəsində təqdimatla çıxış etdi.. O, həmçinin, mərkəzin məqsədi, onun fəaliyyət istiqamətləri və mərkəzdə könüllü kimi fəaliyyət göstərmək haqqında geniş məlumat verdi.

Görüşün sonunda mərkəzin koordinatoru tələbələri maraqlandıran suallara cavab verdi. Bu tipli görüşlərin digər fakültələrin tələbələri arasında keçirilməsi də nəzərdə tutuldu.

## COORDINATOR OF CENTER FOR STUDENTS WITH DISABILITIES MEETS WITH STUDENTS

On November 27, Rima Mammadova, project manager of the "Establishment of a Foundation for the Integration of Disabled People into HEIs of Azerbaijan" (ESFIDIP) TEMPUS project and coordinator of the Center for Students with Disabilities, met with students of the Khazar University School of Engineering and Applied Sciences. During the meeting, she made a presentation about the Tempus project and the Center for Students with Disabilities that has been opened as part of the project. She also explained the center's objectives, its spheres of activity and opportunities to volunteer at the center.

At the end of the meeting, she answered students' questions. She is planning to have similar meetings with the students of other schools.




# ADDA PROJECT: ДИЗАЙН, ОБЪЕДИНЯЮЩИЙ ВЫСОКИЕ ТЕХНОЛОГИИ И БЛИЗОСТЬ К ПРИРОДЕ

*Специфика современного дизайна, новые тенденции в интерьерах, архитектурные решения сегодняшнего дня – все это было представлено в минувшую пятницу в конференц-зале Boulevard Hotel Baku на первой в Баку церемонии награждения участников международного проекта Design Dialogue.*

*Здесь же мы и познакомились с деятельностью азербайджанской компании ADDA Project Design, привлекшей внимание нестандартными художественными и техническими решениями.*

*Как сообщил исполнительный директор компании Нодар Шашик оглы, дизайн-студия ADDA Project – это творческий коллектив, объединивший опытных дизайнеров, архитекторов и других квалифицированных специалистов с одной целью – создать индивидуальный образ современного интерьера и умело воплотить его в жизнь.*

**- Расскажите, пожалуйста, нашим читателям о компании ADDA Project.**

- Наша компания специализируется на создании интерьер и экстерьер дизайн-проектов жилых и коммерческих помещений. Если вы мечтаете жить в доме с эксклюзивным интерьером, который спроектирован с учетом всех ваших пожеланий и потребностей, то вы, несомненно, обратились по нужному адресу. Наши архитекторы и дизайнеры обладают богатым опытом создания уникальных интерьеров, поэтому они всегда находят необычные решения и способы максимальной реализации даже самых сложных оформительских задумок. Высокий уровень профессионализма сотрудников компании ADDA Project Design позволяет выполнять самые сложные и нестандартные проекты на достойном уровне.

Компания на рынке присутствует довольно давно, лет десять. Однако, год тому назад мы провели ребрендинг, и таким образом вышло, что мы

фактически создали новый бренд ADDA Project. У нас обширный спектр услуг и сейчас весьма актуален новый проект (как вы могли видеть на нашем стенде), базирующийся на так называемой 3D реальности.

Кроме высокотехнологичного подхода, впереди у нас – другие немаловажные проекты, в частности, эко-дизайн. Он сделает помещения намного экологичнее, чем сейчас принято: меньше привычных материалов, больше натуральных. Зеленый цвет испокон веков привлекал человека теплотой и уютом. Но как только люди шагнули в массовое строительство, здания начали возводиться из камня и стекла, и отдают, скажем так, холодком, не ощущается домашний уют, тогда как при включении в наши проекты эко-стиля происходит «этическая» трансформация интерьера за счет натуральных материалов, таких как дерево, камень, глина и натуральные ткани. Как вы уже заметили, наш стенд объединяет два стиля: одна сторона стенда представлена в эко-стиле, дающем ощущение свежести и единения с природой, а другая сторона стенда, изготовленная из стекла, тем самым указывает на современность.

**- Каково участие ADDA Project в сегодняшней встрече Design Dialogue?**

- Впереди у нашей компании большие планы, и один из них мы выполнили сегодня: это участие в международной конференции Design Dialogue Baku по актуальным проблемам дизайна и менеджмента современных бизнес пространств. В жюри мероприятия вошли очень авторитетные личности в сфере архитектуры и дизайна. Мы здесь, как участники выставки, представляем свои работы, и это немаловажно для нас, поскольку Design Dialogue – первое в Азербайджане подобное мероприятие международного уровня. Его организует российская компания, которая осуществила ранее такой же проект в Казахстане, сейчас они ориентированы на Азербайджан и собрали всех известных архитекторов Азербайджана, топовые дизайнерские компании, архитектурные бюро для обсуждения вопроса о роли дизайна в современной жизни.

**- Расскажите подробнее о вашем новом проекте.**

- Он называется «Дизайн интерьера в виртуальной реальности», и такая технология погружает человека в виртуальную атмосферу. Так, благодаря «смарт-очкам» дизайнеры интерьеров смогут составлять 3D-планировку дома вместе с клиентом, погрузиться в составленный проект до его завершения и получить будущую картинку своего проекта. Шлем гарантирует высокий комфорт использования, а также и максимально возможный эффект погружения. Вы сможете погрузиться в мир дизайна интерьера посредством виртуальной реальности, получив при этом реальную картину видео в высоком разрешении 360 градусов. В результате человек может почти «вживую» увидеть тот интерьер, который задумал дизайнер. Чтобы под-готовить такую демонстрацию, требуется много работы: все это надо разработать в трехмерной картинке, сделать видео. И этот шаг в будущее – очень интересный подход, обычно клиентам приходится изучать обычную картинку, пусть и в высоком разрешении. Также следует отметить систему пространственного звучания, которая создает эффект, будто звук исходит непосредственно от источника. Скажем, если пользователь повернется спиной к подвешенному в воздухе виртуальному телевизору, он будет слышать «голограмму» позади себя, как по настоящему ТВ.

Это технология будущего, и мы рады, что одними из первых внедряем в

Азербайджане такую сферу услуг.

**- Какое значение имеет дизайн в современном мире, и в особенности при формировании бизнес-имиджа?**

- Дизайнер в современном мире – это не только реформатор и носитель изменений, но также своеобразный контролер данных изменений. Именно дизайнер, еще на стадии идеи, может контролировать грамотное развитие своего замысла, избегать возникновения ошибок, которые впоследствии могут оказать негативное влияние на человека. Исходя из перечисленного, можно сделать вывод, что дизайн в современном мире – это прежде всего осмысленная деятельность профессионалов, осознающих всю важность и ответственность своих действий.

**- Исходя из своего опыта, как считаете, что нужно дизайнеру для успешности?**

- Для работы в нашей сфере прежде всего нужен безупречный вкус, сопоставление 3D картинки и реального объекта, ну и конечно, знание новых, современных материалов – это одни из главных аспектов в нашей работе. Знания дизайнера распространяются не только на эстетический компонент ремонта. Он должен профессионально разбираться во всевозможных стилевых решениях дизайна, подборе мебели, разработке эксклюзивных проектов по ее созданию, в многообразии современных строительных материалов, специфических аксессуаров и т.п.

**- Какие стили дизайна интерьера вам удаются лучше всего?**

- Этот вопрос мы слышим часто. Ответ на него может быть только один: удается все, поскольку мы подходим к работе ответственно. Но наработанные нами практика и опыт базируются на спросе. Поэтому, чего бы ни искал наш клиент, будь то дизайн-проект офиса или квартиры, ресторана или загородного дома, мы понимаем, что ему необходимо нечто большее, чем просто разработка проекта перепланировки квартиры или создание принципиально нового дизайна помещения. Заказчик всегда ждет от нас радикального, творческого преобразования его жизненного пространства, привнесения в него большей гармонии, комфорта и уюта.

**- А в чем состоит отличие обычного ремонта от дизайнерского? По сути-то итог один: человек воплощает собственное видение и понимание красоты.**

- Далеко не каждый человек может все продумать, предусмотреть и предугадать. Он легко может ошибиться в расчетах, желая воплотить понравившуюся картинку дизайна в свой интерьер. Если что-то упустить из виду, может получиться что-то несуразное, то есть когда все элементы сами по себе вроде бы и красивы, но в то же время диссонируют между собой, плохо сочетаются, уживаются друг с другом.

**- Что бы вы хотели, чтобы чувствовали люди, когда они заходят в новый интерьер и впервые видят готовое творение?**

- Впервые люди видят новый интерьер еще на этапе проектирования, задолго до того, как они смогут войти в обновленное помещение физически. На этом этапе хочется, чтобы новый интерьер пришелся по душе заказчикам. Но для меня намного важнее не первое впечатление, а то, что будет ощущать человек, просыпаясь каждый день, в этой новой, прекрасной, комфортной обстановке. Самый интересный показатель успешности наших интерьеров – это тот факт, что гости, придя в обновленную квартиру, не хотят уходить. Я считаю это хорошим показателем.

**- Каково крупнейшее достижение вашей компании?**

- Это отношения с нашими клиентами. Успех или неудача любого дизайн-проекта определяются отражением отношений, сложившихся у компании с ее клиентом. Я действительно думаю, что наши отношения с людьми - это именно то, что является мерилом успеха. Как мне кажется, очень важно, что именно люди говорят нам по завершении очередного проекта, а, как правило, они говорят о том, как счастливы возвращаться в свой обновленный дом каждый день.

**- Если позволите, «перейдем на личности». Дизайн скорее относится к сфере искусства. Случайно ли вы в него пришли? Или это семейные традиции?**

- Дело в том, что я всегда был, скажем так, связан с искусством. Мой отец - народный артист Азербайджана и России Нодар Шашикоглы, кавалер ордена «Шохрат», обладатель высшей награды Союза театральных деятелей и премии «Зирвя» который играл в таких фильмах, как «На дальних берегах» (в образе Михайло), «Лейли и Меджнун», «Телефонистка» и т. д., исполнил много разноплановых и интересных ролей. Кроме того, к высокому искусству имели прямое отношение моя прабабушка – выдающаяся певица оперного театра в Тбилиси, колоратурное сопрано Нино Цагурия и дядя отца – заслуженный артист Азербайджанской ССР, известный сценический актер Ульви Раджаб, который был одним из основателей Азербайджанского драматического театра. Иными словами, у меня вся семья была носителем традиций искусства и культуры.

До двадцати лет я прожил с родителями в Санкт-Петербурге. С самого детства увлекался рисованием, участвовал во всевозможных выставках, посещал Дом пионеров, который воспитал немало известных художников. Там я занимался изобразительным искусством в течение 5-7 лет, получал разные награды, так что, видимо, в итоге Судьба не случайно привела меня в дизайнерскую компанию. В Баку я окончил университет «Хазар» по специальности «экономист», что в будущем не отразилось на моем мировоззрении, но обогатило меня определенными знаниями, столь необходимыми в современных условиях рыночной экономики. Но, видимо, все-таки гены дали о себе знать, и потянули куда-то - на более творческую стезю.

**- Поскольку Новый год не за горами, хочу вас попросить дать совет нашим читателям: как своими руками можно создать в доме новогоднюю атмосферу?**

- Вы знаете, я в душе больше архитектор, чем декоратор. Декораторы – это люди, которые любят процесс, а я всегда что-то делаю ради результата. Поэтому для своего дома декор я только покупаю. Быстро и эффективно.

Тем не менее, на Новый год всем, вне зависимости от возраста, хочется ощущения волшебства и праздника. Поэтому главным украшением в доме, я считаю, еловые ветки или маленькую настольную елочку – символ Нового года, небольшие гирлянды теплого, золотистого цвета и, конечно же, разноцветные свечи.

*Более подробную информацию о компании можно получить на сайте ADDA Project и на странице компании в Facebook.*

*30.11.2015*





## "EMOSİYALAR VƏ YALANLAR" MÖVZUSUNDA TƏLİM

Noyabr 27-də Xəzər Universiteti Karyera Mərkəzinin təşkilatçılığı ilə universitetdə analitik-siyasi təhlil üzrə ekspert Fəxrəddin Abdullayev tərəfindən "Emosiyalar və yalanlar" adlı təlim keçirildi. Fəxrəddin Abdullayev Xəzər Universitetinin məzunudur. O, 2007-ci ildən natiqlik sənəti və onun incəlikləri, kütlə nitqi, vaxtın idarə edilməsi, motivasiya, fərdi inkişaf, liderlik, müvəffəqiyyət metodları üzrə bir çox universitet və biznes mərkəzlərində təlimlər aparır. Təlimdə "yalan nədir, insanlar niyə yalan danışır, insanların yalan danışdığını necə bilmək olar" mövzuları ətrafında müzakirələr aparıldı. Sonda tələbələri maraqlandıran suallar cavablandırıldı.

## MƏZUNLARLA İŞ ÜZRƏ MƏRKƏZDƏ GÖRÜŞ

Məzunlarla iş üzrə mərkəzin direktoru Baba Bayramlı dekabrın 4-də Xəzər Universitetinin məzunu, "ADDA Project Design" şirkətinin icraçı direktoru Nodar Şaşıqoğlu ilə görüşdü. Görüş zamanı qonağı səmimi salamlayan Baba Bayramlı ona Məzunlarla İş üzrə mərkəzin fəaliyyəti, planları və qarşıda duran cari vəzifələri barədə ətraflı məlumat verdi. Nodar Şaşıqoğlu dəvətə görə minnətdarlıq etdi və vaxtilə təhsil aldığı Xəzər Universiteti ilə əməkdaşlığa daim hazır olduğunu bildirdi.

Görüşdə Xəzər Universitetinin Məzunlar Assosiasiyasının yaradılması ilə bağlı geniş fikir mübadiləsi aparıldı.





## "ALİ TƏHSİLDƏN MÜƏSSİSƏYƏ BİR ADDIM"

Noyabrın 30-da Xəzər Universiteti Karyera mərkəzinin təşkilatçılığı ilə CSS şirkətinin əməkdaşları – Biznesin inkişafı üzrə menecer Kamran Haqverdiyev və İnsan resursları üzrə direktor Leyla Quliyeva "Ali təhsildən müəssisəyə bir addım" adlı təlim keçirdilər. Təlimdə tələbələrin iş axtararkən üzləşə biləcəkləri problemlər və onların aradan qaldırılması yolları, işə qəbul prosesi – rekruter üçün ideal namizəd, karyerada uğurlu addımlamaq üçün tələbəlik illərinin səmərəli keçirilməsi, təlimlər və ictimai fəaliyyət mövzuları ətrafında müzakirələr aparıldı.

## "ONE STEP FROM HIGHER EDUCATION TO A CAREER"

On November 30, a training was held for students in the Khazar University Career Center with Kamran Hagverdiyev, Business Development Manager of CSS, and Leyla Guliyeva, Human Resources Director of CSS, entitled "One step from higher education to a career." The training covered issues that students face when they are searching for work as well as solutions to those problems, the process of finding a job, ideal candidates from a recruiting perspective, best practices in the student years to lay a foundation for a successful career, and other trainings and social activity.





## DEPARTMENT HEAD DELIVERS KEYNOTE SPEECH AT INTERNATIONAL CONFERENCE IN TALLINN

On December 3, an international conference on the Eastern Partnership was held in Tallinn, Estonia with the joint coordination of the Estonian Center for Eastern Partnership, Estonian Foreign Policy Institute, International Centre for Defence and Security and the European Commission Representation in Estonia.

The conference was organized in the wake of the review of the European Neighbourhood Policy revealed on the 18th of November 2015.

Dr. Mukhtar Hajizada, Head of the Khazar University Department of Political Science and International Relations as well as Jean Monnet Chair, delivered a keynote speech at the conference. Along with the ambassadors of various countries, high level officials, renowned scholars, and authoritative experts in the field, speakers included Mr. Taavi Roivas, the Estonian Prime Minister, and Mr. Lawrence Meredith, Director for the Neighborhood East at the European Commission.








Noyabrın 28-də Xəzər Universitetinin Tarix və arxeologiya departamenti və "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin birlikdə təşkil etdikləri "Tələbələrin arxeoloji qazıntılara cəlb olunması nə vəd edir?" mövzusunda tədbir keçirildi. Tədbirdə departamentin müdiri, fəlsəfə doktoru Roza Arazova, departamentin müəllimləri - fəlsəfə doktorları Araz Aslanlı və Ələkbər Ələkbərov, İngilis dili və ədəbiyyatı departamentinin baş müəllimi Firəngiz Nəsirova, "Miras" İctimai Birliyinin sədri və Ağsu arxeoloji ekspedisiyasının rəhbəri fəlsəfə doktoru Fariz Xəlilli, AMEA Memarlıq və İncəsənət İnstitutunun elmi işlər üzrə direktor müavini, Qafqaz Albaniyasının memarlığı və incəsənəti şöbəsinin müdiri, sənətşünaslıq üzrə elmlər doktoru, əməkdar incəsənət xadimi, "Miras" İctimai Birliyinin İdarə heyətinin üzvü professor Kübra Əliyeva, AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun İlk orta əsrlər şöbəsinin elmi işçisi, Ağsu ekspedisiyasının aparıcı işçisi Elmira Abbasova, İsveç Azərbaycanlıları Konqresinin sədri Emil Mirzəyev və "Miras"ın üzvləri çıxış etdilər.

R. Arazova Ağsu arxeoloji ekspadisiyası və Xəzər Unversitetinin əməkdaşlığı haqqında məlumat verdi. "Miras"ın dəvəti ilə Ağsu şəhərinə olan səfəri barədə danışdı. Xəzər Universitetinin tələbələrinin Ağsu şəhərinə arxeoloji ekspedisyalara cəlb edilməsi işində köməkliklərinə görə F.Xəlilliyə minnətdarlığını bildirdi. Tələbələrin arxeoloji ekspedisiyalarda iştirakının əhəmiyyətini vurğuladı və özünün iştirak etdiyi arxeoloji qazıntılar zamanı baş vermiş maraqlı hadisələrdən danışdı.





F. Xəlilli çıxışında Ağsu rayonu və Mehrəvanqala orta əsr yaşayış yerində apardıqları arxeoloji qazıntı işləri barədə ətraflı məlumat verdi. Arxeoloji tədqiqat metodlarından, qazıntılar zamanı baş vermiş maraqlı hadisələrdən bəhs etdi. "Tələbələrin arxeoloji qazıntılara cəlb olunması nə vəd edir?" mövzusunda geniş təqdimat keçirdi. Keçən yay ekspedisiyada iştirak etmiş və noyabrda "Miras" və İtaliyanın YUCOCU Assosiasiyasının birgə təşkil etdikləri "Konservasiya, restavrasiya və arxeoloji ərazilərin idarəsi" adlı təlimdə iştirak etmiş tələbələrin adını vurğuladı və digər tələbələri də arxeoloji ekspedisiyalarda fəal olmağa çağırdı. Çıxışından sonra o, tələbələrin sullarını cavablandırdı.

Tarix və arxeologiya departamentinin tələbələrindən Vüsal Həsənov və Bəbir Mədətov iştirak etdikləri ekspedisiyalar barədə təəssüratlarını bölüşdülər və bu ekpedisiyalara həsr olunmuş videoçarxı nümayiş etdirdilər. Tədbir zamanı V. Həsənovun "Miras"ın idarə heyətinin üzvü seçilməsi barədə Fariz Xəlilli məlumat verdi.

K. Əliyeva çıxışında arxeologiya ilə incəsənətin bir-biri ilə sıx bağlılığını vurğuladı. Tədbirdə E. Abbasova da çıxış etdi və Ağsu arxeoloji qazıntılarından geniş məlumat verdi.

Tədbirdən sonra iştirakçılar Tarix və arxeologiya departamentində bir çox tarixi mövzuda fikir mübadiləsi aparılan dəyirmi masada iştirak etdilər.

## INTERNATIONAL STUDENTS VISIT NATIONAL AZERBAIJANI HISTORY MUSEUM

On December 10, Saida Izmayilova, Instructor of the Khazar University Department of History and Archeology, took her class including international students to the National Azerbaijani History Museum upon the initiative of the Department, which emphasizes raising awareness of Azerbaijani history and national culture. The students learned about all the periods of Azerbaijani history and viewed history exhibits. They were especially interested in the Ancient times and Middle Ages exhibits.




# XƏZƏR UNİVERSİTETİNİN RƏHBƏRLİYİ, MÜƏLLİM VƏ TƏLƏBƏLƏRİ XALQ ARTİSTİ ƏLİBABA ABDULLAYEVİN 100 İLLİK YUBİLEYİNDƏ





Noyabrın 30-da Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Azərbaycanın xalq artisti, görkəmli rəqs ustası və baletmeyster Əlibaba Abdullayevin 100 illiyinə həsr olunmuş yubiley tədbiri keçirildi. Tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, Direktorlar və Qəyyumlar Şurasının müşaviri Nailəxanım İsayeva, universitetin müəllimləri, yerli və xarici tələbələr iştirak etdilər. Universitet kollektivi yubiley tədbirinə Ə. Abdullayevin qızı Elmira Abdullayeva tərəfindən dəvət olunmuşdu.



Filarmoniyanın foyesində rəqqasın quruluş verdiyi rəqslərin eskizləri, rəqslərini səhnələşdirdiyi filmlərdən səhnələr, həmçinin, onun təltif edildiyi mükafatlardan ibarət şəxsi arxivi nümayiş olunurdu.

Tədbiri giriş sözü ilə Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini Ədalət Vəliyev açmış, sənətşünas mütəxəssislər Əlibaba Abdullayevin çoxşaxəli yaradıcılıq fəaliyyətindən danışmışlar. Yubiley tədbirində tamaşaçılara Azərbaycan Dövlət Rəqs Ansamblı, Mahnı və Rəqs Ansamblı, Dövlət Uşaq Filarmoniyasının rəqs qrupu və "Azərbaycan qartalları" ansamblının iştirakı ilə geniş konsert proqramı təqdim olundu.



Xəzər Universitetinin Kamerun, Çexiya, İndoneziya, Hollandiya və Ukraynadan olan tələbələri zəngin Azərbaycan rəqs mədəniyyəti ilə yaxından tanış olmaq imkanı əldə etdilər.

Xəzər Universitetinin keçmiş müəllimləri, hazırda Musiqi və incəsənət departamentinin rəqs qrupu üzrə məsləhətçiləri - xalq artisti Cəmilə Bayramova "Qaval", əməkdar artist Xanlar Bəşirov "Gənclik" rəqslərində solist kimi çıxış etdilər.

Universitetin kollektivi, xüsusən də xarici tələbələr yubiley tədbirindən xoş təəssüratla ayrıldılar.









## TÜRKİYƏ VƏ AVROPA QONŞULUQ SİYASƏTİNİN İKİ İSTİQAMƏTİNƏ DAİR JEAN MONNET SEMİNARI

Dekabrın 1-də Ankara Siyasət Mərkəzinin böyük elmi işçisi Dr. Burcu Gültekin Xəzər Universitetinin Siyasi elm və beynəlxalq münasibətlər departamenti tərəfindən təşkil edilən "Jean Monnet Avropa Seminarları" çərçivəsində universitetdə təqdimat keçirdi. B. Gültekin Aralıq dənizi regionunda əməkdaşlıq prosesində Türkiyənin rolu və ölkənin Avropa İttifaqı üzvlüyünə namizədliyinin bu prosesə təsirini izah etdi. O, həmçinin, Türkiyənin Aİ-yə qoşulma prosesinin ləngidilməsinin demokratikləşməyə təsirini təhlil etdi və geniş Qara dəniz bölgəsində regionlaşdırma üçün mövcud olan problemlər haqqında danışdı. B. Gültekinin çıxışında Türkiyə-Ermənistan münasibətlərində problemlər, Aİ-nın geniş bölgədə rolu, Türkiyə Respubli-kasının Prezidenti Recep Tayyip Erdoğanın popul-yarlığı və bu faktorun Türkiyənin Qərb və Yaxın Şərq ölkələri ilə münasibətlərinə təsiri kimi məsələlər də öz yerini aldı. Bundan əlavə, B. Gültekin Türkiyə və müxtəlif Avropa ölkələri tərəfindən cari qaçqın böhranına fərqli yanaşmaları müzakirə etdi.

Departamentin qonağı Qara Dəniz İqtisadi Əməkdaşlığa dair öz fikirlərini paylaşdıqdan sonra tədbirin iştirakçıları ilə əlaqədar mövzular müzakirə olundu.

Tədbirdə, tələbələrlə yanaşı, Avrasiya və Yaxın Şərq Araşdırmaları Mərkəzinin müdiri, fəlsəfə doktoru Fərda Əsədov və departamentin müdiri, fəlsəfə doktoru Muxtar Hacızadə iştirak edirdilər.

## JEAN MONNET SEMINAR ON TURKEY AND THE TWO DIMENSIONS OF THE EUROPEAN NEIGHBOURHOOD POLICY

On December 1, Assoc. Prof. Dr. Burcu Gültekin Punsmann, Senior Researcher at the Ankara Policy Center, visited Khazar University within the Jean Monnet European seminar series of the Department of Political Science and International Relations. She made a presentation for students and faculty members in which she focused on Turkey's role in the Mediterranean cooperation and on how Turkey's EU candidacy affected the role of this country in the Euro-Mediterranean cooperation.

Dr. Gültekin Punsmann also discussed the impact of the slow-down of Turkey's accession process to the EU on democratization, and talked about problems for regionalization in the wider Black Sea area. In the lecture, she also touched on Turkish-Armenian problems, the impact of the EU's role in the wider region, the popularity of Erdogan and this factor's influence on Turkish relations with Maghreb countries and the Middle East. She also briefly reflected on the different approaches to the current refugee crisis demonstrated by some European countries and Turkey.

After hearing her insights on the perspectives for the Black Sea Synergy and the BSEC, the participants discussed the related topics in detail. Along with students of the Department, participants included Dr. Farda Asadov, Director of the Center for Eurasian and Middle Eastern Studies, and Dr. Mukhtar Hajizada, Head of the Department.

# 85 ГЛАВНОЕ В ЖИЗНИ – САМА ЖИЗНЬ



## SÜLEYMAN ƏLİYARLI:

### “ MƏN ÖLƏNDƏ İSTƏRƏM Kİ, XALQA BİR SÖZÜM QALSIN...”

*Əməkdar elm xadimi, Türk Tarix Qurumunun fəxri üzvü, tarix elmləri doktoru, professor Süleyman Əliyarlı böyük müəllim və görkəmli alim idi. Dekabr ayında anadan olmasının 85 ili tamam olur.*

*Süleyman müəllim Xəzər Universiteti ilə sıx bağlı olan alim idi. O, bir müddət universitetdə müəllim kimi fəaliyyət göstərmiş, sonralar universitetdəki "Elm və Sənət Məclisi"nin daimi üzvlərindən olmuş, məclisdəki dərin məzmunlu məruzə və çıxışları ilə yadda qalmışdır.*

*Süleyman müəllimlə ünsiyyətdə olan hər bir kəs uzun müddət onun gözəl, dərin fikirli, mənalı nitqini unuda bilmirdi. İki ildir ki, bu dahi insan həyatda yoxdur, amma xatirəsi onu tanıyanların, həmkarları və tələbələrinin qəlbində yaşayır.*

*Alimin anadan olmasının 85 illiyi münasibətilə 2000-ci ildə onun 70 illik yubileyi ərəfəsində Roza Arazova tərəfindən alınmış müsahibənin orijinalını (Azərbaycan dilindəki variantı "Xəzər Xəbər"in mart 2001-ci il nömrəsində çap olunmuşdur), tələbələrinin ürək sözlərini və S. Əliyarlının bir şeirini oxucularımıza təqdim edirik.*

**- Что для Вас главное в жизни? Карьера, деньги, семья или что-то другое?**

- Главное в жизни – сама жизнь. Карьера, деньги, семья – слагаемые жизни, но вы кажется забыли упомянуть любовь.

**- Если бы Вы начали жить сначала,чего бы Вы не сделали?**

- Если бы начал жить сначала, старался бы обходиться без глупых, пустословных книг.

**- В наше время часть наших ученых ушла в политику, другие - в религию. Вы к чему более склонны?**

- Уйти в политику или в религию? Никуда не собираюсь уходить. Политика – слишком грязновата, а религия – в амбициозной интерпретации деятелей Ислама и Христианства – вызывает одно сожаление.

**- Верите ли Вы в Бога?**

- Да, верю – в Высшего Творца.

**- Как Вы считаете, современный ли Вы человек или же Вы человек из прошлого, а может человек будущего?**

- Да, вроде бы современный, хотя моя профессия порой делает меня сродни человеку из прошлого . Сознаюсь, очень уж близки мне помыслы поколения, создавшего непреходящие ценности – от газеты «Əkinçi» до первой Республики нашей. Какое могучее поколение, какие интеллектуалы! Человека же будущего только вообразить можно, а иметь его повадки – нелепица.

**- Какой бы Вы хотели видеть Родину - свободной, но нищей и отсталой или же в составе другого государства, но богатой и процветающей?**

- Господь с вами, забыли, что я историк? Любое состояние Отечества мне предпочтительнее, только не рабство. В составе другого государства наш печальный опыт насчитывает почти два столетия, но Родина наша «богатой и процветающей», кажется, совсем не была. И «свободной, но нищей и «отсталой» она не будет вековечно, хотя наш путь к благополучию усеян розами также не будет - увы

**- Чего Вам в жизни не хватало и не хватает?**

- Всю мою жизнь мне не доставало свободы творчества.

**- Что значит для историка обладать чувством времени?**

- Не пристало историку уподобляться оракулу, хотя занятие сие было в почете во все времена. О неизбежности краха советского режима думали немало людей. Бахтияр Вагабзаде и мы, его близкие товарищи, полагали, что произойдет это в начале нового столетия, но события опередили нас. Вот и решайте, каким должно быть чувство времени.

**- Какая модель развития государства Вам ближе: европейская или же азиатская?**

- Европейская модель государственного устройства мне ближе.

**- Как, по Вашему мнению, должен решаться в Азербайджане национальный вопрос?**

- Лучше не «решать» как-то национальный вопрос, а хорошо относиться друг к другу, как это делали на протяжении веков наши предки. Проблемы возникали и у них, но накопившиеся «сейсмические энергии» они гасили мирно, рассказывая лишь анекдоты друг о друге.

**- Как Вы относитесь к очередной смене алфавита?**

- Не пужайте себя «очередной сменой» алфавита». Речь может идти лишь о полном, безоговорочном возврате к латинскому письму, что стало жизненной необходимостью в век компьютеров. При этом не должно быть «самостийных» алфавитов для Азербайджана, Турции, Туркменистана и т.д. в отдельности. Нужен переход к единому письму для всего «Türk Dünyası», дабы нейтрализовать действие пагубной духовной разобщенности, веками насаждаемой колониальными державами.

**- Какова, по Вашему мнению, основная задача преподавателя вуза?**

- Основная задача вузовского ученого - воспитание специалиста и гражданина в одном лице.

**- Что Вам дает общение со студентами?**

- Общение с моими студентами есть общение с молодостью, а посему оно меня не тяготит.

**- Какие качества студентов Вы больше запоминаете?**

- Какие качества в студентах меня прельщают? Интеллект, в особенности юмор. Да еще пожалуй, одержимость. Впрочем, не равнодушен и к бездарности – запоминается надолго.

**- Чем отличаются студенты 60-х от студентов 90-х?**

- Студенты 60-х и 90-х годов: и те, и другие были и есть источник сердечных переживаний для нас наравне с родителями. Но «шестидесятники» мне ближе. Геронтологически что ли. Ведь на штат преподавателя меня зачислили с III курса аспирантуры, когда сам еще не вполне освободился от повадков студента.

**- Что для Вас значит книга "Azərbaycan tarixi", подготовленная к изданию под Вашим руководством?**

- Книга «Azərbaycan Tarixi» - итоговая веха. Судьба была благосклонна к моей персоне – позволила отразить на бумаге практикуемую мной методу «прочтения» источников и размышлизмы, испробуемые в моих лекционных курсах и разработках в течение 40 лет. Один из моих бывших студентов, ныне профессор, при презентации книги заметил, что, читая ее, не мог отделаться от мысли, что он уже читал ее ранее.









Но раньше книги не было, и он объяснил, что уже «читал» ее, некогда слушая мои лекции.

**- Трудно ли было создавать историческую школу в науке?**

- Трудно. Лидер «научной школы» по нашей профессии обязан быть аккумулятором концептуальных идей, неиссякаем в плане тематических новаций. Таковой была, как мне думается, «школа Сидорова», имеющая большие заслуги в новом «прочтении» истории Российского капитализма в 50-60-е годы в условиях жесточайшей цензуры и гонений на инакомыслие. В моем становлении как историка «школа Сидорова» сыграла, пожалуй, решающую роль, хотя связанная с нею моя первая докторская работа о превращении Азербайджана в экономическую колонию Российской метрополии была безнадежно загублена в 1969 г.

Легковесно научная школа создаваема быть не может. Историкам памятны немало подобных случаев. В течение 60-70-х годов в родном мне Бакинском университете по истории культурного строительства в Азербайджане за годы советской власти было защищено не менее 20-ти докторских и кандидатских диссертаций. Бог мой, сколько тогда говорилось о создании новой «научной школы!» Её вклад же в историографию в конечном итоге может быть выражен блистательным нулем. Ни одной концептуальной и глубокой разработки, оставившей след...

По моему убеждению, научная школа не столько «создается», сколько формируется на базе общего концептуального понимания проблем отечественной истории – как руководителем, так и исследователями – разработчиками.



**- Какие выводы лично для себя вы сделали в процессе своего глубокого изучения истории?**

- Латиняне полагали, что Historia est Magistra Vitae. В наше время многие думают, - и не без основания, - что она никого ничему не учит. Мне же кажется, что она учит нас тому, как мало еще мы знаем эту капризную особу.

**- Может ли личность изменить окружающий мир или даже самый властный человек не в силах сделать что-то без поддержки народа?**

- Все зависит от интеллекта. Властный, «сильный» человек способен натворить в истории многое: сколачивать империи, создавать города, храмы и библиотеки, возвысить или унизить целые народы. При этом добро и зло творимый ими в большинстве случаев не без поддержки или одобрения народа. Разве политике и практике «тысячелетнего рейха» нацистов или сталинским концлагерям и «железному занавесу» народы Германии и СССР в свое время выражали свое неприятие? Отнюдь нет.

**- Ваши пожелания молодому поколению.**

- «Будьте полезны своему народу» - такое пожелание высказал ректор МГУ академик И.Г.Петровский при вручении диплома об окончании, пожимая мне руку.



# ÜRƏKDƏN GƏLƏN SÖZLƏR...

*Mən fəxr edirəm ki, Əliyarlı tarix məktəbini keçmişəm. Tariximizi öyrətməklə yanaşı, Süleyman müəllim bizi bir vətəndaş kimi formalaşdırırdı. Hər bir mühazirəsində Süleyman müəllim öz tələbələrinə müqəddəs ana torpağa - Azərbaycana borcluluğu anladırdı. Onun mühazirə zamanı söylədiyi Xaqani Şirvaninin bir fikri yaddaşıma bu günə kimi həkk olunub: "heç vaxt Şirvan çörəyini zəhmət çəkmədən yeməmiş, hər zaman onun suyunu qənaətlə işlətməyə çalışmışam". Süleyman müəllimin mühazirələri bir elm kimi dərin iz buraxmışdır və vətəndaşlıq anlamı hər birimizin içində çox güclüdür.*

**Elmira Muradəliyeva,**
*tarix elmləri doktoru, professor*

*Süleyman Əliyarlı bir alim kimi, bir vətəndaş kimi öz borcunu yerinə yetirdi, amma mənə belə gəlir ki, Azərbaycan cəmiyyəti çox məsələlərdə Süleyman müəllimə borclu qaldı. Biz bu böyük alimdən çox şey öyrəndik və öyrənməkdə də davam edəcəyik. Bu gün də çağdaş dünyamızda onun əsərlərinə olan elmi maraq səngimək bilmir. Süleyman Əliyarlı tarixi prosesə canlı orqanizm kimi yanaşan, konseptual baxışları, elmi məktəbi və milli vicdanı olan, sözün tam mənasında millətimizi diri saxlayan alimlərimizdən və ziyalılarımızdan idi.*

**Cəmil Həsənli,**
*tarix elmləri doktoru, professor*

*Süleyman müəllimin yüksək intellekti, böyük tarixçilik məharəti onun təkcə Azərbaycanda deyil, dünyada da tanınmasına və qəbul edilməsinə səbəb olmuşdu. Dünyanın az - çox tanınan Azərbaycanşünaslıq mərkəzlərində onun əsərlərindən iqtibaslar verilmiş, tədqiqatlarının nəticələri yüksək qiymətləndirilmişdir.*

**Kərim Şükürov,**
*tarix elmləri doktoru, professor*

*Hər bir tələbənin sevimli müəllimləri olur. Bunların arasında Süleyman Əliyarlının xüsusi yeri var. Süleyman müəllimin mühazirələrində biz elmi məsələlərlə yanaşı, eyni zamanda vətəndaşlıq dərsi keçirdik. O vaxt bir çox məsələlərlə bağlı açıq fikir demək olmurdu. İdeoloji məhdudiyyət var idi, amma Süleyman müəllim elə bir sual qoyurdu ki, elə pauza edirdi ki, biz tələbələr sonra 5-6 saat bu pauzanın arxasında olanları müzakirə edirdik...*

*Biz məzunlar 1973-cü ildən bu günə kimi nə əldə etmişiksə, bunların arxasında Süleyman müəllim kimi müəllimlərin əməyi durur.*

**Qoşqar Qoşqarlı,**
*tarix üzrə fəlsəfə doktoru*

*Ədalət naminə deməliyəm ki, müəllimlər arasında zamanın ruhuna deyil, tarixi hdisələrə söykənən, biz tələbələrə, eləcə də millətə yasaq edilən həqiqətlərə üz tutan müəllimlərim də az olmamışdır. Belə müəllimlər arasında öz yeri və mövqeyi ilə seçilən, dövrdən, zamandan asılı olmayaraq bütövlüyünü qoruyan, tarixi həqiqətləri söyləməkdən zövq alan Süleyman müəllim xüsusilə fərqlənirdi.*

**Məmməd Cəfərli,**
*tarix üzrə fəlsəfə doktoru*



**Süleyman Əliyarlı**

## DÜŞÜN BİR AZ, DÜNƏNKİ DOST...

*Düşün bir az, dünənki dost, tikanlı söz yaman olur,*
*Şüşə kimi sınır ürək, könül də bədgüman olur.*

*Vurursan mənimlə bu gün, sonra əcəb sədan gəlir*
*De, qara əməllər üçün yoxsa qəlbin pünhan olur?*

*And içirsən düz ilqara, inanıram sözlərinə,*
*Bəs nədəndir bu sevənlər, sabah mənə düşmən olur?*

*Təngidir məni ülfətin, sarır düşüncəmi heyrət,*
*Hər yanlış addımın fəqət, sənə bir imtahan olur.*

*Gec deyildir, tut əlimdən, ayırd edək cığırları,*
*Pislik silinmir xəyaldan, keçən yalnız zaman olur.*

*Düşün bir az, dünənki dost, qazısan da mənə quyu,*
*Yaman gündə arxa olan yenə tək Süleyman olur*

***1957-ci il***

*Materiallar Tarix və arxeologiya departamenti tərəfindən çapa hazırlanmışdır*

# I MİLLƏTLƏRARASI QAFQAZ TÜRKOLOQLARI TOPLANTISI






## ƏMƏKDAŞLARIMIZ "I MİLLƏTLƏRARASI QAFQAZ TÜRKOLOQLARI TOPLANTISI"NDA

Noyabrın 27-dən 30-dək Xəzər Universiteti Təhsil fakültəsinin dekanı Elza Səmədova və Azərbaycan dili və ədəbiyyatı departamentinin müəllimi Elmira Məmmədova Türkiyənin İstanbul şəhərində Yunus Əmrə İnstitutu və Türk Dil Qurumunun təşkilatçılığı ilə keçirilən "I Millətlərarası Qafqaz Türkoloqları Toplantısı"nda Azərbaycan nümayəndə heyətinin tərkibində iştirak etdilər. Tədbirdə Qafqaz türkologiyasının problemləri müzakirə olundu və problemlərin həllinə dair təklif və görüləcək işlər barədə dəyirmi masalar təşkil olundu.

Tədbirlə bağlı əlavə məlumatı bu linkdən almaq olar:

*http://www.yee.org.tr/tr/faaliyethaberleri/i-milletlerarasi-kafkas-turkologlari-calisma-toplantisi-sona-erdi_1681*

## DEAN OF SCHOOL OF EDUCATION AT 1ST INTERNATIONAL CAUCASUS TURKOLOGISTS' MEETING

On November 27-30, Dr. Elza Semedova, Dean of the School of Education, and Elmira Mammadova, instructor for the Department of Azerbaijani Language and Literature, participated as part of the Azerbaijani delegation to the 1st International Caucasus Turkologists' Meeting organized by Yunus Emre Institute and Turkish Language Board in Istanbul, Turkey. The meeting included roundtables to discuss problems of Caucasus Turkologists and suggestions for the solutions to these problems, as well as challenges remaining for the future.

Additional information about the event is available (in Turkish) at this link:

*http://www.yee.org.tr/tr/faaliyethaberleri/i-milletlerarasi-kafkas-turkologlari-calisma-toplantisi-sona-erdi_1681*






## PLAGİARİSM TRAİNİNG

On December 1st, an anti-plagiarism training was held for students of Khazar University's School of Education and School of Engineering and Applied Sciences. The training was led by Aygul Mammadli, employee of Plagiat.pl. She covered topics such as the definition of plagiarism, how to prevent plagiarism, and ethics. Then she answered students' questions.

## "XƏZƏR"İN ƏMƏKDAŞI BEYNƏLXALQ SEMİNARDA

Noyabrın 30-u və dekabrın 1 - də Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) birgə təşkilatçılığı ilə JW Marriott Absheron Baku otelində "Arxivlər, kitabxanalar və təhsil müəssisələri üçün istisnalar və məhdudiyyətlər" mövzusunda beynəlxalq seminar keçirildi. Tədbirdə Xəzər Universitetini Kitabxana - İnformasiya Mərkəzinin Elektron-informasiya xidmətləri bölməsinin rəhbəri Aytac Misgərli və Kataloqlaşdırma bölməsinin rəhbəri Samirə Orucova təmsil edirdilər.

Seminarda kitabxanaların hazırkı vəziyyəti və kitabxanalarda müəllif hüquqlarının necə qorunması müzakirə edildi. A. Misgərli seminar iştrakçılarını Xəzər Universitetinin kitabxanasının fəaliyyəti haqqında məlumatlandırdı.

## KHAZAR STAFF MEMBERS AT INTERNATIONAL SEMINAR

On November 30- December 1, the Copyright Agency and World Intellectual Property Organization (WIPO) coordinated an international seminar entitled "Exceptions and Limitations for Archives, Libraries and Educational Institutions." The seminar took place at the Marriott Hotel in Baku. At the event, topics were discussed such as the current state of libraries and what they should do to protect authors' rights. Aytaj Misgerli, staff member of Khazar University's Library and Information Center, participated in the event and made a presentation about Khazar's library.







# "WHAT YOU WILL DISCOVER?"

## TRAINING BY bp

On December 2, 2015, a training was held for students in the Khazar University Career Center with BP representatives including Sabina Valiyeva, Recruitment Coordinator, Mehriban Shikhzamanova, Graduate and Intern Recruitment Advisor, Fuad Ibrahimov, Petroleum Engineer, and Zibeyda Rzazade, Drilling Engineer, entitled "What will you discover?" During the training, the students were given information about the 2016 Summer Internship Program. Then students' questions were answered.



# XƏLİL MƏCİDOĞLU



*Xəlil Məcidoğlu son illər ərzində jurnalımızda "Həyat lövhələri" sərlövhəsi ilə müntəzəm dərc etdirdiyi yazılardan oxucularımıza yaxşı tanışdır. İxtisasca riyaziyyatçı-mexanik olan X. Məcidoğlunu elmi ictimaiyyət də elmlər doktoru, professor, riyaziyyat, mexanika, iqtisadiyyat və idarəetmədə riyazi üsullara aid 25 kitabın, 100-dən çox elmi məqalənin, bir neçə ixtiranın müəllifi kimi yaxından tanıyırdı.*

*X. Məcidoğlu sənədli bədii yaradıcılıqla da məşğul olur, ölkə mətbuatında müxtəlif əsərlər çap etdirirdi. "Həyat lövhələri" də onlardan bir nümunədir. Alimin "Tanrının seçimi" adlı cənədli povesti də çap olunmuşdur.*

*"Həyat lövhələri" silsiləsindən oxuculara təqdim olunan aşağıdakı yazıları jurnalımız üçün hazırlamış, lakin çatdıra bilməmişdi. Yazıları vəfatından sonra ailəsi təqdim etmişdir.*

# HƏYAT LÖVHƏLƏRİ

## UNNUCA

Mən bu yabanı bitkini Ağcabədinin şoran torpaqlarında daha çox görmüşəm. Bəziləri ona salmanca da deyirlər. Mənə elə gəlir ki, "Unnuca" daha uyğun gələn addır, çünki bu bitkinin yarpaqlarının arxasına elə bil un səpmisən.

Bu bitkiyə səcdə eləmək lazımdır, çünki Böyük Vətən müharibəsi illərində yüz minlərlə insanı acından ölməkdən xilas etmişdir. Qaynadılmış unnuca uzun müddət insanların yeganə yeməyi olmuşdur.

Unnuca indi də insanların harayına çatır, o, milli xörəyimiz olan dovğa üçün gözəl göyərtidir.

Ukraynanın kiçik, sakit, yaşıl bir şəhərində ailəlikcə istirahət edirdik. Ürəyimiz istəyən hər xörək bişirməyə imkan vardı, bircə dovğadan başqa. Qəribə idi. Ukraynanın bu bərəkətli qaratorpağında yerli əhali keşniş, şüyüd, cəfəridən başqa göyərti əkmirdilər. Bu göyərtilər isə dovğanın əsas göyərtiləri deyildi. Əsas dovğa göyərtisi ispanaq, dağ keşnişi, unnuca – bunlar da burda yox idi. Aydan çox idi dovğaya tamarzı qalmışdıq.

Bizim yaşadığımız evdən bir az aralıda şəhər əhalisinin əkin yerləri yerləşirdi. Həyat yoldaşımla bu əkin yerlərinə baş çəkmək istədik ki, bəlkə ispanaq əkən tapıldı.

Əkin yerinə yaxınlaşanda nə görsək yaxşıdır... Unnuca. Gözlərimizə inanmırdıq, axı, bu qaratorpaqda onun nə işi var. Mən unnucadan bir çəngə qırıb burnuma çəkdim. İlahi, iy, ətir həmin idi. Qəribə burası idi ki, unnucanı iylədikcə Ağcabədi torpağı, doğma yerlər gözümün önündə canlanırdı. Eşq olsun sənə, Unnuca!

Bir bişirimlik unnuca yığıb evə qayıtdıq. Bişirdiymiz dovğadan qapı qonşumuza da verdik. Sonradan qonşumuz etiraf etdi ki, dovğanın tamına baxıb, görüb ki, çox turşdur, iki qaşıq şəkər tozu əlavə edib.

Heyif sənə, milli yeməyimiz, bizdən başqa sənin qədrini kim bilər!

## ÇÖRƏK PULU ƏVƏZ EDİRDİ

Vaxt vardı görülən işin müqabilində pul götürmürdülər, əvəzində çörək istəyirdilər. Məsələn, naxırçı heyvan sahiblərindən hər ayın axırında heyvanların sayından aslı olaraq, bir, iki təndir çörəyi götürərdi, pul istəməzdi.

Bir cavan seyid vardı. Həyətlərə at üstündə girərdi, əmranə səslə tələb edərdi:

- Verin, seyidin payını.

Onun payı taxıl, un, çörək olardı. Pul götürmürdü.

Çörək heç vaxt tədavül vasitəsi olmasın!

## ACLIQ GÜC GƏLƏNDƏ

Böyük Vətən müharibəsində qələbədən bir neçə il keçsə də, insanlar aclıqdan çıxa bilməmişdilər.

Anam təndirdə, sac üstündə çörək bişirəndə mütləq yaxın qonşulara çörək paylayardı. Deyərdi ki, çörəyin iyi gedir.

Bu dəfə də anam sac üstündə çörək bişirirdi. Hamımız anamın başına yığışmışdıq. Elə bu an bir nəfərin bizə tərəf gəldiyini gördük. O, bizə yaxınlaşıb anama müraciətlə:

- Bacı, mən acam – dedi. Anam:

- Bişmiş çörək hələ yoxdur, qoy sacın üstündəki bişsin, verərəm sənə.

Kişi əlindəki çomağa söykənib gözlərini saca dikləmişdi. O, çörəyə baxmırdı, çörəyi gözləri ilə yeyirdi. Uşaq olsam da, hiss edirdim ki, kişi çörəyin bişməsini gözləməyəcək. Doğrudan da qəflətən, saca hücum çəkib sacın üstündəki bişməmiş çörəyi bir göz qırpımında qarmalayıb qaçdı. Kişi qaça-qaça xəmiri ağzına dürtürdü.

Mən ac insanın çörəyə baxan gözlərini lap uşaqlıqda görmüşəm. On illər keçsə də, mən o gözləri indi də görürəm. Siz görməsəniz yaxşıdır.

## YOLDAŞLIQ GÖRÜŞÜ

Sovet vaxtı Ağdam və Ağcabədi futbol komandaları Ağdamda yoldaşlıq görüşünə hazılaşırlar. Ağdam komandası Ağcabədi komandasından qat-qat güclü olduğundan və oyunun Ağdamda keçirildiyini nəzərə alaraq, ağdamlılar oyunu 0:0 hesabı ilə başa vurmaq qərarına gəlirlər.

Oyun öz axarı ilə gedirdi və bitmək üzrə idi. Elə bu zaman ağcabədililərin "11" nömrəsi Hümmət, top daşıyan uşaqlara yalvarır ki, "ciyərim yanır, mənə su verin". Uşaqlar icazə olmasa da, Hümmətə su verirlər. Hümmət su içib meydançaya qayıdır. Elə bu vaxt top hardansa Hümmətin qarşısında peyda olur. O, bir göz qırpımında topla qapıya tərəf irəliləyərək heç kəsin gözləmədiyi qolu vurur. Stadiona ağır bir sükut çökür. Nə baş verdiyini anlayan ağdamlılar oyunu mərkəzdən başlamalı olurlar və elə başlayan kimi də qol vururlar. Bir birinin ardınca ağdamlılar on qol vururlar. Hirslənmiş ağdamlılar şərait yaradırlar ki, qapıçıları da ağcabədlilərin qapısına qol vursun. Beləliklə, yoldaşlıq görüşü 11:1 hesabı ilə başa çatır.

## GÜN GƏLƏCƏK

Bərəkətli Azərbaycan torpağının hər bir guşəsinin bir seçmə neməti var. Qubanın istənilən kəndinə getsəniz saysız-hesabsız alma bağlarına rast gələrsiniz. Ona görə yox ki, başqa meyvə burada bar vermir, yox, buranın suyu, torpağı, havası almanı daha çox bəyənib.

Kimdən soruşsan ki, Göyçay, Ağdaş bağlarının yaraşığı hansı meyvədir, fikirləşmədən deyər: nar, heyva. Bəs Ordubadın ərik bağlarının tayıbərabəri var?

Lap uşaq idim. Böyük qardaşımla Minkənddən atlarla Laçına gəlirdik. Ordan maşınla Ağcabədiyə getməli idik.

Qardaşım uşaq olsam da, mənimlə məsləhətlə-

şərdi:

- Qabaqda bir kənd var (adını desə də, yadımda qalmayıb), başdan-ayağa gilas bağlarıdır, dönək ora, gilas alaq.

Kənddə bir həyətə girdik. Doğrudan da, həyətdə bol gilas ağacları insanın gözünü oxşayırdı. Qardaşım ev sahibinə müraciətlə:

- Ay dayı, bizə bir on kilo gilas sat.

- A bala, biz gilası kilo ilə satmırıq, ağacla satırıq, hansı ağacı istəyirsən, seç, yığ.

Qardaşım deyəsən, "acgözlük" edib ən barlı ağacı seçmişdi, çünki bütün xurcunları, torbaları gilasla doldursaq da, ağacın gilasının çoxu yığılmamışdı. Gilasın hamısını yığmasaq da, şərtləşdiyimiz kimi ağacın pulunu ödəyib, ev sahibi ilə sağollaşdıq. Yığdığımız gilasa çox cüzi pul vermişdik (qardaşım belə deyirdi).

Lakin Azərbaycanın bir cənnət guşəsi var ki (Ağdamın Gülablı kəndi), burada bütün meyvələr eyni dərəcədə bol, dadlı, ətirlidir, istəyirsən, tut, üzüm, armud, gilas, olsun, istəyirsən əzgil, zoğal olsun.

Uşaqlığım Ağcabədidə keçsə də, Gülablı meyvələrinin dadına çox yaxşı bələdəm. Böyük Vətən müharibəsində qələbədən xeyli vaxt keçsə də, çörək qıtlığı vardı.

Yadımdadır, Gülablıdan Ağcabədi kəndlərinə at arabasında, eşşək arabasında hər cür meyvələr gətirərdilər. Məsələn, bir kiloqram buğdaya bir kiloqram armud, bir kiloqram arpaya bir kiloqram əzgil dəyişərdilər. Gülablı demək olar ki, bütün meyvəsini taxıla dəyişib geri qayıdardı.

Sonralardan gülablılı qohumlarımız, dostlarımız, tanışlarımız bizə meyvə cəhətdən korluq verməzdilər.

Bağlar, meyvə ağacları, bağbanın qayğısına, nəvazişinə, sığalına, daimi diqqətinə möhtacdır. Bağban gözünü çəkdiyi bağ məhvə məhkumdur. Artıq neçə onilliklərdir ki, biz Gülablı meyvəsinə tamarzıyıq. Nə bağ var, nə də ki bağban. Lakin gün gələcək, torpağından, elindən-yurdundan didərgin salınmış torpaq, bağ sahibi yurduna-yuvasına qayıdacaq. Gülablı kəndi yenidən çiçəklənəcək, bol dadlı, ətirli meyvələrinə bizi qonaq edəcək.

## XAN ƏMİ DAVANI YATIRTDI

Demək olar ki, hər il Şuşaya istirahətə gələn ağdamlı cavanlarla yerli cavanlar arasında dava düşərdi. Bəzən heç səbəbini də bilmirdilər, elə bil əlləri geyişirdi. Bu davanın yazılmamış qanunları vardı. Və hər iki tərəf bu qanunlara riayət edirdi – davanın günü, vaxtı müəyyənləşdirilərdi, hər iki tərəfdən vuruşanların sayı eyni olmalıydı. Şuşalıların açıq-aydın lideri vardı. Adı – "Kəllə" Sabir idi. Adından göründüyü kimi Sabirin əsas "silah"ı kəlləsi idi. Onun kəlləsinə tuş gələn, çətin özünə gəlirdi. Bu davada isti, soyuq silah işlətməzdilər, əsas silah əl, ayaq, kəllə idi.

Ağdamlılar çətinə düşəndə ağcabədili cavanların lideri "Şofer Əmikişi"-ni köməyə çağırardılar. Əmikişinin nəhəng əlləri, pəhlivan biləkləri vardı. Əmikişi heç vaxt yumruq işlətməzdi, çünki bu, qarşı tərəf üçün ölümcül ola bilərdi. Odur ki, o, yalnız sillə işlədirdi və bu sillədən yayınmaq mümkün deyildi. Sillə alan da özünə çətin gəlirdi, ağzı-burnunu qan bürüyürdü. Elə dava da bununla bitirdi. Heç nə olmamış kimi cavanlar dağılaşardılar.

Bu davalar haqqında Xan Əmiyə xəbər verirlər. Növbəti davanın başlanmasına az qalmış dava meydanında Xan Əmi peyda olur və Şuşalı cavanlara yaxınlaşaraq:

- Məni də qəbul edin, bu ağdamlı cavanlara bir toy tutum ki, qoy görsünlər necə dalaşarlar. Ə, heç xəcalət çəkirsiniz, ə, bu, nə biabırçılıqdır.

Xan Əminin sözlərindən sonra hər iki tərəfin cavanları Xan Əmiyə yaxınlaşıb:

- Xan Əmi bizi bağışlayın, biz ömürlük dərs aldıq.

O gündən cavanlar arasında neçə illər davam edən dava-dalaşa son qoyuldu.

# MÜƏLLİMİMİZ TÜRKİYƏDƏ KEÇİRİLMİŞ "AZƏRBAYCAN HƏFTƏSİ"NDƏ



Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimi Araz Aslanlı Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi (SAM) tərəfindən noyabrın 17-dən 19-dək Türkiyənin Ankara-Eskişehir-Bolu şəhərlərində təşkil olunan "Azərbaycan həftəsi" silsilə tədbirlərində iştirak etmişdir. SAM-ın direktoru Fərhad Məmmədovun başçılıq etdiyi nümayəndə heyətinin tərkibinə millət vəkili Musa Qasımlı, Prezident Administrasiyası Xarici əlaqələr şöbəsinin əməkdaşı Elmar Hüseynov, SAM-ın Xarici siyasət məsələlərinin təhlili şöbəsinin müdiri Cavid Vəliyev, Daxili siyasətin təhlili şöbəsinin elmi işçisi Elnarə Qəribova və qeyd etdiyimiz kimi, Araz Aslanlı daxil idi.

Tədbirlər Azərbaycan Respublikasının Prezidenti yanında SAM və Türkiyə Respublikasının Xarici İşlər Nazirliyi Strateji Araşdırmalar Mərkəzi tərəfindən təşkil olunmuşdu.

Noyabrın 17-də nümayəndə heyəti Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı səfirliyində olmuş, sonra isə Xarici İşlər Nazirliyində dəyirmi masa tədbirində iştirak etmişdir. XİN SAM (Türkiyə) direktoru Dr. Ali Resul Usul və SAM-ın direktoru, fəlsəfə doktoru F. Məmmədovun moderatorluq etdikləri dəyirmi masada M. Qasımlı və A. Aslanlı ilə yanaşı, Atılım Universitetinin professoru Dr. Hasan Ali Karasar, ODTÜ-nün professoru Dr. Oktay Tanrısever, Xarici İqtisadi Əlaqələr İdarəsinin əməkdaşı (DEİK) Selcuk Akat, İstanbul Şəhər Universitetinin dosenti Dr. Vüqar İmanbəyli, eləcə də, Azərbaycan nümayəndə heyətinin üzvləri çıxış etmişlər. Dəyirmi masada Türkiyə-Rusiya münasibətləri, Türkiyə-Azərbaycan münasibətlərində enerji məsələsi, iki ölkə arasında ticari və iqtisadi əlaqələr, Ukrayna-Rusiya böhranının postsovet ölkələrinə təsiri və s. mövzular müzakirə olunmuşdur.

Noyabrın 18-də A. Aslanlı Bolu Abant İzzet Baysal Universitetində keçirilən konfransda da çıxış etmişdir. Konfransda C. Vəliyev, M. Qasımlı, Abant İzzet Baysal Universitetinin professoru, Dr. Kamer Kasım və dosent Dr. Yaşar Sarı məruzələrlə çıxış etmişlər.

Səfərin son günündə – noyabrın 19-da Ankarada iki elmi tədbir daha keçirilmişdir. A. Aslanlı bu tədbirlərdə iştrak etməklə yanaşı, həmin gün TRT Avaz kanalında canlı yayımla Azərbaycan-Türkiyə münasibətləri və regionda son baş verənlər barədə sualları cavablandırmışdır.

# YESENİNŞÜNAS TƏDQİQATÇI İSAXAN İSAXANLININ YARADICILIĞI HAQQINDA "AZƏRBAYCAN" JURNALINDA MƏQALƏ ÇAP OLUNMUŞDUR

Azərbaycan Yazıçılar Birliyinin aylıq ədəbi-bədii orqanı olan "Azərbaycan" jurnalının 2015-ci il noyabr nömrəsində ədəbiyyatşünas alim Nizami Tağısoyun yeseninşünas tədqiqatçı, Xəzər Universitetinin prorektoru İsaxan İsaxanlının yaradıcılığı haqqında "Bax, yenə qayıtmışam..." adlı məqaləsi dərc olunmuşdur.

Məqalədə İ. İsaxanlının Serqey Yeseninin Bakı dövrü ilə əlaqədar apardığı tədqiqatlardan bəhs olunur.

## BEYNƏLXALQ ƏLAQƏLƏR OFİSİ ƏCNƏBİ TƏLƏBƏLƏRİN UNİVERSİTETƏ CƏLB OLUNMASINA DAİR İCLAS KEÇİRDİ

Noyabrın 18-də Xəzər Universitetinin Beynəlxalq Əlaqələr Ofisi xarici tələbələrin universitetə cəlb olunması strategiyası, fəaliyyət növləri və planlarını müzakirə etmək üçün universitetin administrasiyası ilə iclas keçirdi.

İclasda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, universitetin rektoru və Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı Dr. Hassan Niknafs, Akademik işlər üzrə prorektor professor Məhəmməd Nuriyev, Administrasiya və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı, İqtisadiyyat və menecment fakültəsinin dekanı İnqilab Əhmədov, Humanitar və sosial elmlər fakültəsinin dekanı Cabir Xəlilov, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Magistratura, doktorantura və elmi işlər şöbəsinin direktoru Eldar Şahgəldiyev, Məzun ofisi koordinatoru Baba Bayramlı, Türkiyədən olan qonaq Serhat Kalmaz və Beynəlxalq Əlaqələr Ofisinin işçi heyəti iştirak edirdilər.

Beynəlxalq Əlaqələr Ofisinin direktoru Turan Cəfərova beynəlxalq təcrübənin tədqiqi və universitetin əvvəlki illərdə bu sahədə tətbiq etdiyi fəaliyyətlərin təhlilinin nəticələri haqqında məruzə etdi. Xüsusilə də, rəqəmsal mediadan istifadə, məzunlarla iş, agentliklər və digər təcrübələrlə bağlı geniş müzakirə aparıldı.

İclas təqdim olunan materialların müzakirəsi və növbəti addımlarla bağlı təkliflərlə yekunlaşdı.

## INTERNATIONAL AFFAIRS OFFICE HOLDS A MEETING ON RECRUITMENT

On November 18, 2015, the International Affairs Office held a meeting with the university administration to discuss the recruitment strategy, activities, and plans of Khazar University.

Professor Hamlet Isaxanli, the founder of Khazar University and the Chairman of its Board of Directors and Trustees, participated in the meeting. Participants also included: Dr. Hassan Niknafs, President of Khazar University and Acting Dean of the School of Engineering and Applied Sciences; Prof. Mahammad Nuriyev, Vice President for Academic Affairs; Isakhan Isakhanli, Vice President for Administration and Student Affairs, Ingilab Ahmadov, Dean of the School of Economics and Management; Jabir Khalilov, Dean of the School of Humanities and Social Sciences; Alovsat Amirbeyli, Public Relations and Media Director; Baba Bayramli, Alumni Office Coordinator; Eldar Shahgaldiyev, Head of the Division of Graduate Studies and Research; Serhat Kalmaz, guest from Turkey; and the International Affairs Office staff.

Turan Jafarova, Director of the International Affairs Office, reported on the results of the research about international practice and analysis of the recruitment activities the university used in previous years. In particular, use of digital media, alumni engagement, and work with agencies as well as other recruitment practices were discussed in detail.

The meeting concluded with a discussion of the presented materials and recommendations about the next steps.






Noyabrın 20-də Xəzər Universitetinin Elektronika, telekommunikasiya və radiomühəndislik departamentinin təşkilatçılığı ilə fizik-nəzəriyyəçi Namiq Məmmədov "Şüa qravitasiyası nəzəriyyəsi" haqqında seminarda məruzə ilə çıxış etdi. Seminarda Mühəndislik və tətbiqi elmlər fakültəsinin müəllimləri, tələbələri və respublikanın müxtəlif elmi-tədqiqat institutlarından alimlər iştirak edirdilər.

Elektronika, telekommunikasiya və radiomühəndislik departamentinin müdiri Nuru Səfərov seminar iştirakçılarına N. Məmmədovu təqdim etdi və onun çıxış edəcəyi mövzu haqqında ilkin məlumat verdi. Sonra məruzəçi "Şüa qravitasiyası nəzəriyyəsi"nin əsas müddəaları ilə seminar iştirakçılarını məlumatlandırdı. Təqdim olunan nəzəriyyə qravitasiyanın mahiyyətini fizikanın standart modelindən fərqli şəkildə izah edir. Məruzəçi söylədiyi mülahizələri apardığı eksperimentin nəticələri ilə təsdiqləyirdi.

Nəzəriyyənin tam mətni ilə *www.gravfiz.com* saytında tanış olmaq mümkündür.

## TƏLƏBƏ MƏCLİSİ PARLAMENTİNİN NÖVBƏTİ İCLASI

**22 NOYABR 2015**

Tələbə Məclisi Parlamentinin növbəti iclası keçirildi. İclasda 44 parlament üzvü iştirak edirdi.

İckasda imtahanların keçirilməsi, nizam-intizam, bəzi fənlərdən mid-term imtahanlarının yenidən keçirilməsi, bəzi imtahanlarda nəzarətçilərin öz səlahiyyətlərindən kənar hərəkətlərə yol verməsi, ATGTİ-nin 1-ci kurs tələbələri ilə görüşünün keçirilməsi, idman yarışlarının davam etdirilməsi, ilk Xəzər Şahmant çempionatının keçirilməsi, Xeyriyyə bazarının təşkili, 3-cü Bilik yarışmasının keçirilməsi, Yeni il ərəfəsində Uşaq evinə səfər, Yeni il şənliyinin keçirilməsi, parlament üzvlərinin fəaliyyətlərinə görə diplomlarla təltif olunması, parlamentə yeni üzv olacaq və komitələrdə çalışacaq tələbələrə vəsiqələrin verilməsi kimi məsələlər müzakirə olundu.

## GUEST LECTURE ON THE ROLE OF AZERBAIJAN IN EUROPEAN ENERGY SUPPLY



On November 23, Mr. Ilham Shaban, the Director of the Caspian Barrel Center for Oil Studies, delivered a guest lecture for undergraduate students of the Department of Political Science and International Relations of Khazar University. His main focus was on Azerbaijan's place in the European energy strategy. He spoke about the main destinations for Azerbaijani oil and gas exports, both in Europe and elsewhere in the world. He also talked about the changing market conditions, changes in oil supply and demand and its impact on prices, peculiarities of commercial gas sales and "the new oil strategy" of Azerbaijan. Mr. Shaban shared with the students exclusive information about the volumes of oil and condensate production in Azerbaijan by the year 2020 obtained from the companies specializing in the energy sector.

The lecture was followed by a question and answer session, where questions were raised about the delivery of gas to Nakhchivan according to the swap agreement with Iran, the diversification of oil and gas export routes, peculiarities of TAP and TANAP projects, and the influence of the interstate relations on their realization as well as their influence on regional cooperation including Turkey and Georgia.



## SEMİNAR: "START-UP VƏ SAHİBKARLAR ÜÇÜN RƏQƏMSAL VASİTƏLƏR"

Dekabrın 2-də Xəzər Universitetinin "Neftçilər" kampusunda "Start-up və sahibkarlar üçün rəqəmsal vasitələr" adlı seminar keçirildi. Beynəlxalq Əlaqələr Ofisinin koordinasiya etdiyi bu seminar Azərbaycandakı ABŞ səfirliyi tərəfindən təşkil olunmuşdu.

Seminar *Microsoft-Azərbaycan*ın nümayəndəsi və Təhsil proqramları üzrə direktor Emin Axundovun "Microsoft Imagine Cup" yarışması haqqında qısa təqdimatı ilə başladı və cari il üçün olan müraciət prosesini izah etdi. O, keçən il baş tutan yarışmada ikinci yerə layiq görülən Azərbaycan komandasının uğuru haqqında da danışdı. E. Axundov vurğuladı ki, qalib komandanın üzvlərindən biri Xəzər Universitetinin tələbəsidir və o, digərlərini də bu yarışmada iştirak etməyə cəsarətləndirmişdir.

Son 20 il ərzində bu sahədə olan start-up və sahibkarlıq üzrə amerikalı ekspert Lane Becker isə ikinci hissədə öz təqdimatına start-up sahəsindəki karyera yolu haqqında qısa məlumat verərək başladı. O, uğurlu sahibkar olmaq üçün öz tövsiyələrini iştirakçılarla bölüşdü.

Seminar sual-cavab hissəsi ilə yekunlaşdı.

## SEMINAR ON DIGITAL SOLUTIONS FOR START-UPS AND ENTREPRENEURS

On December 2, 2015, a seminar entitled "Digital Solutions for Start-ups and Entrepreneurs" was held at the Neftchiler campus of Khazar University. The seminar was organized by the U.S. Embassy in Azerbaijan and coordinated by the International Affairs Office.

The seminar started with a presentation by Emin Akhundov, representative of the Microsoft Corporation and Director of Educational Programs, who gave a short speech about the "Microsoft Imagine Cup" contest and explained the application process for the current year. He informed participants about the success of the Azerbaijani team, which took second place in the last year's competition. Mr. Akhundov emphasized that one of the students from the winning team studied at Khazar University and encouraged the students to take part in the contest.

Lane Becker, American expert on start-ups and entrepreneurship, who has been in the field for the past twenty years, started his part of the presentation by giving brief information about his career path in start-ups. He shared some tips for succeeding as an entrepreneur with the participants.

The seminar concluded with a Q&A session.







# "KARAOKİ PARTİ"Sİ

Dekabrın 4-də Xəzər Universiteti Təhsil fakültəsi "Karaoki Parti"si keçirdi. Tədbir aralıq imtahanlarının stresini atmaq üçün təşkil olunmuşdu.

Tədbirdə Təhsil fakültəsinin tələbələrinin hazırladıqları müxtəlif parodiyalar, maraqlı səhnəciklər və yarışmalar nümayiş olundu. Tədbirdə bütün universitetin tələbələri fəal iştirak etdilər.

Tədbirdə yığılan vəsait Yeni il qabağı 3 saylı Uşaq Evinə təqdim ediləcək.



# TƏHSİL FAKÜLTƏSİNİN TƏLƏBƏLƏRİ QUBADA PRAKTİKİ İŞLƏRİ YERİNƏ YETİRDİLƏR

Dekabrın 5-də Təhsil fakültəsi Coğrafiya və ətraf mühit departamentinin "Hidrologiya" kursu üzrə təhsil alan tələbələri Quba rayonunda yerləşən hidroloji və meteoroloji məntəqələrdə oldular.

Tələbələr müəllim Xalid Muxtarlının rəhbərliyi ilə praktiki işləri yerinə yetirdilər.





# "KARVAN" QALİB GƏLDİ

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, YAP Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin Şən və Hazırcavablar Klubları arasında müsabiqə keçirilib.

10-17 noyabr Beynəlxalq tələbə gənclər həftəsi münasibətilə keçirilən müsabiqədə müxtəlif komandalar yarışıb. Ard-arda səhnəni paylaşan komandalar hazırladıqları yumoristik səhnəciklər, maraqlı musiqi nömrələri və parodiyalarla cəmiyyətdəki nöqsan və çatışmazlıqlara, sosial problemlərə qarşı tənqidi münasibət bildiriblər. Tələbə gəncliyin dünyada və ölkədə baş verən ictimai-siyasi proseslərə, bəşəriyyəti düşündürən qlobal problemlərə obyektiv, tənqidi münasibəti, maraq dairələri və düşüncə səviyyələri, fəal vətəndaşlıq mövqeyi onlarda milli ideologiyanın, vətənpərvərlik ruhunun, ali insani hisslərin formalaşdığını təsdiqləyib.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyorlarından ibarət münsiflər heyəti gərgin sənət yarışını obyektiv qiymətləndirib. Münsiflər heyətinin yekdil qərarı ilə NDU-nun "Karvan" komandası yarışın qalibi olub. Naxçıvan Dövlət Texniki Kollecinin "Zirvə" komandası ikinci, Naxçıvan Tibb Kollecinin "Loğman" komandası isə üçüncü yerə layiq görülüb. Müsabiqəni yekun tədbirində qaliblər təşkilatçıların kubokları, diplom və fəxri fərmanaları ilə təltif olunub.



# KOREYA İLƏ ƏLAQƏLƏRDƏ YENİ MƏRHƏLƏ

Cənubi Koreya Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli Səfirinin ikinci müavini, konsul Chon Junsouk və səfirliyin əməkdaşları dekabrın 7-də NDU-da səfərdə olmuşlar. Səfərin məqsədi Univertsitetdə fəaliyyət göstərən Koreya Mədəniyyət Mərkəzinin və Koreya Dili Tədrisi Mərkəzinin fəaliyyəti ilə tanışlıq və bu sahədə gələcək əməkdaşlığın perspektivlərinin müzakirəsi idi.

Universitetin Tədris işləri üzrə prorektoru Seyid Surə ilə keçirilən görüşdə mərkəzin ötən müddət ərzində gördüyü işlər barədə ətraflı məlumat verildi. Prorektor qeyd etdi ki, universitetin Cənubi Koreya ilə geniş təhsil əlaqələri mövcuddur. Hazırda universitetdə 10-a yaxın koreyalı tələbə təhsil alır. Universitetin Koreyanın Kim-Çonq və Busan Universitetləri ilə əməkdaşlıq müqavilələri mövcuddur. Kim-Çonq Universiteti ilə NDU arasında mobillik əsasında stomatologiya, turizm, ingilis dili, hüquq ixtisasları üzrə tələbə mübadiləsi həyata keçirilir. Universitet ərazisində Koreya-Azərbaycan dostluq parkı salınmışdır. Universitetin beynəlxalq münasibətlər ixtisasında "Koreyaşünaslıq" seçmə fənn kimi tədris planına salınmış və Koreyalı müəllimlər tərəfindən uğurla tədris edilmişdir. Hər il univetsitetdə koreyalı tələbələrin təşkil etdiyi "Koreya günləri"ndə Koreya mədəniyyəti, tarixi, folklor nümunələri təqdim edilir və yerli tələbələr tərəfindən maraqla qarşılanır.

Görüşdə çıxış edən Chon Junsouk universitetdə səmimi qarşılanma və Koreya dilinin tədrisi mərkəzinin fəaliyyətinə yaradılan şəraitə görə minnətdarlığını ifadə etmiş və Koreya Respublikasının Təhsil Nazirliyi tərəfindən mərkəzə əlavə tədris vəsaitlərinin alınması üçün ayrılan qrantı mərkəzə təqdim etmişdir. Konsul bundan sonra da mərkəzin davamlı fəaliyyəti və NDU-nun Koreya universitetləri ilə əlaqələrinin genişlənəcəyinə əminliyini ifadə etmiş və bu sahədə inteqrasiyanın zəruriliyini vurğulamışdır.

Görüşün sonunda qonağa xatirə hədiyyəsi təqdim olunmuş, mərkəzlə tanışlıq qonaqda xoş təəssürat yaratmışdır.

**Mehriban Sultan,**
*NDU-nun Mətbuat şöbəsinin müdiri*



## MÜƏLLİMİMİZİN TÜRKİYƏDƏ KİTABI ÇAPDAN ÇIXIB




2015-ci il noyabrın sonlarında Tarix və arxeologiya departamentinin müəllimi Araz Aslanlının "Qarabağ problemi və Türkiyə-Ermənistan münasibətləri" adlı kitabı Türkiyədə çap olunmuşdur.

Kitabda Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı probleminin (Qarabağ probleminin) aktuallığı, işğalın ümumilikdə region üçün yaratdığı problemlər, münaqişənin həllinin vacibliyi və region üçün yaradacağı faydalar, Türkiyə-Ermənistan münasibətlərindəki mövcud vəziyyətin bu baxımdan əhəmiyyəti qısaca izah olunmuşdur.

Kitab iki hissədən ibarətdir. Birinci hissədə xüsusilə Anadoluda və Cənubi Qafqazda "erməni məsələsi"nin ortaya çıxması prosesinə, o cümlədən Qarabağ probleminin səbəblərinə və tarixinə qısaca toxunulmuşdur. Sonra problemin həlli ilə bağlı təşəbbüslər, Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyi, beynəlxalq təşkilatların işğal ilə bağlı qərarları izah edilmişdir.

Kitabın ikinci hissəsində Türkiyə-Ermənistan münasibətlərinin yaxın tarixi və münasibətlərdəki əsas məqamlar qısaca izah edilmiş, Türkiyə-Ermənistan münasibətlərinin yaxşılaşdırılması ilə bağlı təşəbbüslərə toxunulmuşdur. Türkiyə-Ermənistan münasibətləri və sərhəd məsələsi ilə bağlı Azərbaycanın mövqeyinin Türkiyədə və beynəlxalq aləmdə daha düzgün anlaşılması üçün Azərbaycan, Ermənistan və bəzi xarici dövlətlərin tezisləri ayrı-ayrılıqda dəyərləndirilmişdir. Hər bir hissənin sonunda o hissədəki əsas mövzu ilə bağlı başlıca arqumentlər və əks arqumentlər qeyd edilmişdir.

## DEPARTAMENT MÜDİRİMİZ TALLİNDƏ KEÇİRİLƏN BEYNƏLXALQ KONFRANSDA

Dekabrın 3-də Estoniyanın Tallin şəhərində Şərq Tərəfdaşlığı üzrə Estoniya Mərkəzinin, Estoniya Xarici Siyasət İnstitutunun, Beynəlxalq Müdafiə və Təhlükəsizlik Mərkəzinin və Estoniyada Avropa Komissiyasının nümayəndəliyinin birgə təşkilatçığı ilə "Şərq Tərəfdaşlığı" mövzusunda beynəlxalq konfrans keçirildi.

Xəzər Universiteti Siyasi elm və beynəlxalq münasibətlər departamentinin müdiri, Jean Monnet proqramının sədri, fəlsəfə doktoru Muxtar Hacızadə konfrasda çıxış etdi. Konfransda, həmçinin, müxtəlif ölkələrin səfirləri, yüksək səviyyəli rəsmilər, tanınmış alimlər və nüfuzlu ekspertlərlə yanaşı, Estoniyanın baş naziri Taavi Roivas və Avropa Komissiyasının "Şərq Qonşuluğu" üzrə direkoru Lourens Meredit ***(Lawrence Meredith)*** də çıxış etmişlər.

## XƏZƏR UNİVERSİTETİNİN KEÇMİŞ FUTBOLÇUSUNUN 350-Cİ OYUNU

Dekabrın 8-də ***metbuat.az*** xəbər saytı Azərbaycanın peşəkar futbolçusu Rəşad Abdullayevin karyerası ərzində 350-ci oyununu keçirdiyini və bu nəticəyə çatan 6-cı azərbaycanlı futbolçu olduğu haqqında xəbər yamışdır. Hazırda Peşəkar Futbol Liqasında "Zirə" (Bakı) komandasında çıxış edən futbolçu peşəkar karyerasına 1999-cu ildə "Xəzər Universiteti" futbol komandasında başlamış və universitetin komandasında 60 oyun keçirmişdir.

Xəbəri tam şəkildə bu linkdən oxumaq olar: ***http://metbuat.az/news/310514/resad-abdullayev-350-ye-catdi.html.***





## ƏLİLLİYİ OLAN ŞƏXSLƏRİN TƏHSİLƏ İNTEQRASİYASI İLƏ BAĞLI GÖRÜŞ

Dekabrın 2-də "Əlilliyi olan şəxslərin Azərbaycan ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması" (ESFIDIP) adlı Tempus layihəsinin meneceri və Əlilliyi olan Tələbələr üçün Mərkəzin koordinatoru Rima Məmmədova Xəzər Universitetinin Təhsil fakültəsinin tələbələri ilə görüşdü. Görüş zamanı Rima Məmmədova Tempus layihəsi və layihə çərçivəsində yaradılmış Əlilliyi olan Tələbələr üçün Mərkəz barəsində təqdimat etdi. O, həmçinin mərkəzin məqsədi, onun fəaliyyət istiqamətləri və mərkəzdə könüllü kimi fəaliyyət göstərmək haqqında geniş məlumat verdi.

Görüşün sonunda Mərkəzin koordinatoru tələbələri maraqlandıran suallara cavab verdi.

## COORDINATOR OF CENTER FOR STUDENTS WITH DISABILITIES MEETS WITH STUDENTS

On December 2, 2015, Rima Mammadova, project manager of the "Establishment of a Foundation for the Integration of Disabled People into HEIs of Azerbaijan" (ESFIDIP) TEMPUS project and coordinator of the Center for Students with Disabilities, met with students of the School of Education. During the meeting, she made a presentation about the Tempus project and the Center for Students with Disabilities that has been opened as part of the project. She also explained the center's objectives, its spheres of activity and opportunities to volunteer at the center.

At the end of the meeting, she answered students' questions.

## TƏLƏBƏLƏRİMİZ QIZIL AYPARA CƏMİYYƏTİNDƏ TƏCRÜBƏ KEÇMİŞLƏR

Artıq neçə ildir Azərbaycan Qızıl Aypara Cəmiyyətində müxtəlif təhsil ocaqlarının tələbələri təcrübə keçirlər. Xəzər Universitetinin Humanitar və sosial elmlər fakültəsinin tələbələri - Binnətova Sevinc (regionşünaslıq), Həsənova Cəmilə və Kasımov Elxan (beynəlxalq münasibətlər) da noyabrın 5-dən dekabrın 5-dək Cəmiyyətdə bir aylıq təcrübə keçmişlər.

Bu müddət ərzində onlara Cəmiyyətin, eləcə də hərəkatın tarixi, fəaliyyəti, həyata keçirilən layihələr və s. haqqında dolğun məlumat verilmişdir. Onlar, həmçinin, Cəmiyyətin müxtəlif tədbirlərində iştirak etmişlər. Sonda isə, dekabrın 4-də Cəmiyyətiin baş qərargahında tələbələrlə təcrübənin nəticələrinə dair müsahibə keçirilmiş, onlarla sorğu-sual aparılmışdır. Təcrübə rəhbəri kimi Cəmiyyətin Vitse-Prezidenti, fəlsəfə doktoru, əməkdar jurnalist Qafar Əsgərzadə tələbələrin biliklərini qiymətləndirmiş, onlara müvəffəqiyyətlər arzulamışdır. Tələbələrə sertifikat təqdim olunmuşdur.

Dekabrın 8-də ***nezermedia.az*** saytı tələbələrimizin təcrübə keçməsi ilə bağlı xəbər yaymışdır. Xəbəri bu linkdən oxumaq olar:

***http://nezermedia.az/cemiyyet/7133-telebelerin-tecrube-mubadilesi-basha-chatdi.html***



# Khazar University Instructor's Technical Paper Published in AIChE Conference

Mr. Mehdi Zarei, a lecturer in the Khazar University Department of Chemical and Petroleum Engineering, published a technical article in the materials of the AIChE Annual Meeting which was held from November 8 to November 13, 2015, in Salt Lake City, Utah, USA.

His technical paper, entitled "Application of New Explicit Coloration and Neural Network-Based Model for an Efficient Prediction of Natural Gas Compressibility Factor," focused on a study of novel methods for calculating the compressibility factor of natural gases.

The American Institute of Chemical Engineering (AIChE) is a professional organization for Chemical Engineering. Every year, the AIChE Annual Meeting gathers hundreds of Chemical Engineers from around the globe and provides a platform for knowledge transfer.

AIChE content is geared toward chemical engineers working across a wide spectrum of specific fields. It covers these areas:

- Chemicals & Materials
- Chemical Engineering Practice
- Process Safety
- Biological Engineering
- Sustainability & Environment
- Energy

Further information about Mehdi Zarei's technical article can be found at the following link:

https://aiche.confex.com/aiche/2015/webprogram/Paper438596.html

## "ALİ TƏHSİLİN SABAHI"NDA "XƏZƏR"DƏN DANIŞILIR

Dekabrın 7-də "Business Time" İnternet portalında "Ali təhsilin sabahı" adlı məqalə dərc olunmuşdur. Məqalədə Azərbaycan təhsilinin müxtəlif problemlərinə, dövlət və özəl ali təhsil müəssisələrinin üstünlükləri və çatışmazlığı məsələlərinə toxunulur. Özəl universitet olaraq Xəzər Universitetindən söhbət açılır və universitetin rektoru professor Hassan Niknafsın fikirlərinə istinad olunur.

Məqaləni tam şəkildə bu linkdən oxumaq olar:

*http://btime.az/page.html?id_node=361&id_file=5863&lang=ru.*

## GƏNC MÜHƏNDİSLƏRLƏ GÖRÜŞ

Dekabrın 11-də ATEF şirkətinin rəhbər işçilərinin Xəzər Universitetinin mühəndislik ixtisasında təhsil alan tələbələri ilə görüşü oldu. Görüş Elektronika və telekommunikasiya departamentinin təşkilatçılığı ilə keçirildi. Departamentin müdiri Nuru Səfərov görüşün əsas məqsədini tələbələrə açıqladıqdan sonra şirkət rəhbərliyi öz müəssisələrində hansı mühəndis işlərinin olması, gənc kadrlara ehtiyacları və gələcək əməkdaşlıq haqqında öz fikirlərini bölüşdü.

Görüşdə departament və şirkət arasında tələbələrin orada yay istehsalat təcrübəsi keçməsi, həmçinin, Xəzər Universitetinin mühəndislik ixtisasına yiyələnən tələbələrin şirkətdə müvafiq işlərlə təmin olunması haqqında razılıq əldə edildi.

# PROCTER & GAMBLE ŞİRKƏTİ "P&G ORİYENTASİYA GÜNÜ" ADLI SEMİNAR KEÇİRDİ

Xəzər Universiteti Karyera Mərkəzinin təşkilatçılığı ilə **Procter & Gamble** şirkətinin nümayəndələri – İnsan resursları departamentinin rəhbəri Aygün Rüstəmova, satış üzrə rəhbər Seyid Hüseynov və satış üzrə menecer İlkin Zeynallı seminar keçirdilər. Seminarın məqsədi III, IV il və magistr tələbələrinə öz şirkətləri haqqında ətraflı məlumat verməkvə yayda baş tutacaq təcrübə proqramı ilə tanış etmək idi.

Seminarda tələbələri maraqlandıran suallar cavablandırıldı.





# PROCTER & GAMBLE ORIENTATION DAY

Khazar University Career Center held a seminar with members of Procter & Gamble Company including Aygun Rustamova, Head of the Human Resources department; Said Huseynov, Head of the Sales Division; and Ilkin Zeynalov, Sales Manager. The objective of the seminar was to give third- and fourth-year students and graduate students detailed information about the company and introduce them to an internship program which will take place this summer. At the seminar, the students' questions were answered.

# KHAZAR STUDENTS IN COMPUTER PROGRAMMING OLYMPIAD 2015-2016

Qafqaz University held a Republic-wide round of the ACM International Collegiate Programming Contest (ICPC) 2015-2016 Olympiad. About 63 teams from Azerbaijani universities participated in the Olympiad. The Khazar University team earned the right to participate in the next round (semifinals) which will be held in Tbilisi. The Khazar University winning team consisted of 3 members (per the rules of the competition, each team has three people) – Javid Atakishiyev, Amrah Aziz and Farid Mammadov (all majoring in Computer Engineering in the School of Engineering and Computer Science).

TIME

JEFFREY KLUGER



# 4 SURPRISING WAYS SCIENCE IS BATTLING AGING

Dec. 3, 2015

## Explanatory note from the Khazar University Department of Biology

*According Science News (August 26, 2015), "global life expectancy has risen by more than six years since 1990 as healthy life expectancy grows." Today, many studies have shown that a healthy life span can be manipulated in humans. In this article, the author has summarized four main directions of current investigations on increasing life expectancy and slowing the aging process. These directions are manipulation of the microbiome for helpful gut microbes, controlling the burning of chromosome telomeres for reduction of age-related breakdowns, rebuilding circulating stem cells for new cell production and performance, and preventing mitochondrial breakdown for increasing energy metabolism and keeping the cell alive. Clearly, reducing stress, increasing healthy diet and exercise, and limiting exposure to toxins are important parts of a major transition in human health.*

For humans, death in old age has always been life's great punchline. It takes 70 or 80 years to get really good at the whole business of being alive, and no sooner does that happen than mortality begins looking your way, tapping its watch and discreetly reminding you that there's a line waiting for your table.

It's the job of aging—and the multiple diseases that accompany it—to make sure we eventually get out of the way, an unhappy fact humans have been battling practically as long as we've been around. But some experts argue that aggressively treating the age-related diseases—heart disease, cancer, diabetes, dementia—instead of aging itself has been a mistake.

A collection of studies just published in Science aims to explore some promising new strategies for getting down into the machinery of the cells themselves to stop or at least slow the aging process. "Age is the greatest risk factor for nearly every major cause of mortality in developed nations," wrote Matt Kaeberlein, University of Washington professor of pathology, and his colleagues in an introduction to the studies. "Despite this, most biological research focuses on individual disease processes, without much consideration for the relationship between aging and disease."

The effort to change this is a war being fought on multiple fronts. Here are the places science is making some of the greatest advances.

Gut microbes: Whether you like it or not, your body is home to many trillions of bacteria that are essential to digestion and other bodily processes. In the aged, however, the makeup of that population changes, with higher concentrations of a bacterial species known as bacteroides, which which are harmless and helpful as long as they remain in the gut, but can cause infections and other problems when they infiltrate other tissues. Overall, researchers have found, the changing makeup of the microbiome can have an impact on immunity, cognitive function and maintenance of muscle tissue—all of which decline in older people.

The problem is exacerbated by antibiotics, which tend to be prescribed at higher rates as people age, and generally kill good bacteria as well as bad. Studies have shown that long-term stays at assisted living facilities or nursing homes are associated with both increased frailty and further deterioration of the microbiome—though it's not certain whether this is a matter of causation or mere association. Either way, the microbiome is one of the easier parts of the human system to manipulate. It's too much to say that we can eat our way to immortality, but better health and, perhaps, more years are hardly out of the question.

Telomeres: Telomeres are cuff-like structures at the ends of chromosomes that grow shorter over the course of a lifetime, leaving the body susceptible to a range of age-related breakdowns. According to Nobel Laureate Elizabeth Blackburn of the University of California, who wrote one of the papers in the Science release, the rate at which any one person's telomeres burn down is from 30% to 80% determined by genetics, with the rest most heavily influenced by external variables such as diet, environmental toxins, exercise and stress.

The low-hanging fruit here are lifestyle variables: improving diet, increasing exercise, doing what you can to reduce stress and limit exposure to environmental toxins. No matter the reason for telomere shortening, boosting the levels of the body's own telomere-building enzyme, known as telomerase, may help. That can be done, but it's risky. According to Blackburn, who is one of the discoverers of telomerase, "in 80 to 90% of fully malignant human tumors, cancer cell telomerase is up-regulated compared to normal tissue counterparts."

Still, the enzyme remains one of the great hopes of anti-aging scientists, provided the dangers can be controlled. That's no easy feat, which is why a hope—but a promising one—is what telomerase will remain for now.

Stem cells: The body's best little construction workers are stem cells, the versatile progenitor cells that have the power to rebuild organs and other systems by becoming whatever kind of specialty tissue they need to be. No surprise, stem cell production and performance decline as we age—and organ decline follows. Environmental factors such as toxins and poor diet can further damage stem cells, as can sun exposure, in the case of the skin. Two approaches can help reverse, or at least slow, the aging and death of stem cells. In numerous experiments, stem cells from an older organism injected into a younger one have been shown to revert to a more youthful state, and the reverse is true for young cells place in an aged body. Introducing plasma or other blood factors from younger people into older ones may work a similar rejuvenation. Simpler interventions may also help: if a person with a poor diet and little exercise or a high stress level is exhibiting stem cell decline too early in life, reducing the stressors and otherwise changing the lifestyle may reduce the problem too.

Mitochondrial breakdown: There's a little tiny engine room deep inside your cells that is responsible for metabolizing energy and keeping the cell alive. It's the mitochondria, and it's so important it's thought of as its own tiny organ. It even has its own DNA profile. But the engine starts to falter as we age, and that has an impact across the entire power grid that is the body. The good news is, researchers have definitely determined that yes, this plays a direct role in aging. The bad news is that reversing the process doesn't seem to reverse aging—at least not by itself.

The breakdown in the mitochondria has to do with how key proteins—which are densely packed inside the organelle—unfold as they go about their work. This process is less efficient in older organisms. Investigators working with roundworms have figured out ways to intervene in this process and improve the unfolding, but that hasn't had an impact on the apparent age of the animal. Still, the authors of the Science paper have concluded that while mitochondrial health does not, on its own, determine aging, it all but surely plays an important role. Determining that role—and making the most of it—is where anti-aging therapy might lie.

***http://time.com/4134758/anti-aging science/?xid=newsletter-brief***





## EUROPEAN COMMISSION EDUCATION, AUDIOVISUAL AND CULTURE EXECUTIVE AGENCY (EACEA) HOLDS MONITORING AT KHAZAR UNIVERSITY

On December 15, a monitoring meeting was held at Khazar University for the "Establishment of a Foundation for the Integration of Disabled People into HEIs of Azerbaijan" (ESFIDIP) TEMPUS project. The monitoring was carried out by Karolina Garbaliauskaite, representative of the European Commission Education, Audiovisual and Culture Executive Agency (EACEA), and Parviz Baghirov, Director of the National ERASMUS+ Program Office for Azerbaijan. Other participants included representatives of local partners in the project: Sumgayit State University, Ganja State University, Nakhchivan State University, Union of Organizations for Disabled People, the Scientific Research and Training Center for Labor and Social Problems within the Ministry of Labor and Social Protection of the Population, and the working group from Khazar University.

Rima Mammadova, Project Manager, made a presentation at the meeting about project on the progress, work currently underway and future tasks. Karolina Garbaliauskaite positively evaluated the progress so far on the project and asked questions. At the end of the meeting, the participants discussed how the project is going at local partner universities and difficulties they face.

This was the second monitoring meeting for the ESFIDIP project.

## XƏZƏR UNİVERSİTETİNDƏ "POTENSİAL MƏKTƏB DİREKTORLARINA MƏKTƏBİN İDARƏ EDİLMƏSİ ÜZRƏ TƏLİM KURSU" BAŞLADI

Dekabrın 15-də Xəzər Universitetinin həyata keçirdiyi "Potensial məktəb direktorlarına məktəbin idarə edilməsi üzrə təlim kursu" layihəsi üzrə təlimlər universitetin "Neftçilər" kampusunda başladı.

Təlimin əsas məqsədi ölkədəki yeni təhsil strategiyasına və təhsil islahatına uyğun olaraq məktəb direktorlarının və gələcəkdə bu sahədə fəaliyyət göstərmək istəyən təhsil işçilərinin bilik və bacarıqlarını artırmaq, onları dünyadakı səmərəli idarəetmə təcrübəsi ilə tanış etməkdir.

Bu məqsədlə 7 fənn (Kurikulumun tətbiqi və idarə edilməsi, Təhsilin idarə olunması, Statistika və məlumatların təhlili, Maliyyə və mühasibat uçotu, Qanunvericilik və təhsil hüququ, Təhsil psixologiyası və psixometrika) üzrə həftədə 3 gün dərslər təşkil olunur. Kurs 2016-cı il fevralın sonunadək davam edəcək.







## SEMİNAR: "İKT SAHƏSİNDƏ İŞ İMKANLARI VƏ MİCROSOFT SERTİFİKATLARI"

Dekabrın 10-da Xəzər Universiteti *TechnoClub*-unun təşkilatçılığı ilə "İKT sahəsində iş imkanları və Microsoft sertifikatları" mövzusunda seminar keçirildi. Seminarda Xəzər Universitetinin tələbələri ilə yanaşı, başqa universitetlərin tələbələri də iştirak edirdilər.

Klub rəhbərliyi seminarı keçirmək üçün Azərbaycan Respublikası Dövlət Neft Fondunun Baş sistem administratoru Fərhad Kərimovu dəvət etmişdi. Fərhad Kərimov *Micorosoft* şirkətinin ən önəmli sertifikatlarına sahib olan ixtisaslı təlimçidir. O, seminar iştirakçılarına İKT sahəsinin şaxələnmiş bölmələrindən, burada olan karyera imkanlarından, çətinliklərdən və onların aradan qaldırılmasından bəhs etdi. Həmçinin, *Microsoft* sertifikatları barədə məlumat verən F.Kərimov bu sertifikatların İKT sahəsində önəmli olduğunu bildirdi və təsnifatlarını açıqladı.

## "XƏZƏR"DƏ MEKSİKA FİLMİNİN NÜMAYİŞİ

Dekabrın 15-də Xəzər Universitetinin Mərmər salonunda "Həyatımı canlandır" adlı Meksika filmi nümayişi etdirildi. Filmi Xəzər Universitetinin tələbələri ilə yanaşı, Azərbaycan Dillər Universitetinin tələbələri də izlədilər. Nümayişdən öncə İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli salona toplaşanları salamladı və sözü Meksikanın Azərbaycandakı səfiri Rodrigo Labardiniye verdi. Rodrigo Labardini Meksikada ən cox baxılan ekran əsərlərindən biri olan "Həyatımı canlandır" filmi haqqında geniş məlumat verdi. Səfir filmin nümayişi üçün şərait yaratdığına görə Xəzər Universitetinin rəhbərliyinə dərin təşəkkürünü bildirdi.

Xəzər Universitetinin rektoru professor Hassan Niknafsın Meksika səfiri ilə qısa görüşü oldu.

Sonda Meksika səfiri tələbələrlə də görüşdü.

## STUDENTS WATCH MEXICAN FILM

On December 15, 2015, Khazar University students assembled in the Marble Hall to watch a film entitled "It Brings My Life to Life" from Mexico. The event was opened by Alovsat Amirbeyli, Director for Public Relations and Media, who introduced the honored guest of the event, Ambassador Extraordinary and Plenipotentiary of Mexico the Azerbaijan Republic, Mr. Rodrigo Labardini. The Ambassador noted that this film is one of the most popular films in Mexico. He thanked Khazar University for hosting this event.

Along with Khazar University students, students from Azerbaijan University of Languages also watched the film. Then they met with the Ambassador of Mexico. While the Ambassador was visiting Khazar, he also had a brief meeting with Dr. Hasan Niknafs, President of the University.

# HƏR KƏSİN ÖZÜNÜN BİR DÜNYASI VAR...




Qayım-qədim Qarayazı... Yalnız öz təbiəti, havası, suyu ilə deyil, say-seçmə oğulları, tanınmış ziyalıları ilə də seçilib bu yurd, bu oba həmişə... Qarayazının fəxr etdiyi, öyündüyü oğullarından biri də Qiyas müəllimdir – Qiyas Ağamirlidir...

Qiyas müəllim 1931-ci ildə Qarayazının Nəzərli kəndində doğulub. Nəzərli orta məktəbini bitirdikdən sonra M.F.Axunov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunda (hazırda Bakı Slavyan Universiteti) təhsil alıb. Uzun illərdir ki, Kosalı orta məktəbində rus dili və ədəbiyyatını tədris edir. Bu dilin incəliklərini, rus ədəbiyyatının görkəmli ədəbi simalarının əsərlərini böyük həvəslə öyrədir şagirdlərinə... Bu xalq müəllimi yüksək bilik verməkdən başqa, onlara həyat dərsini də öyrədir.

Öz ömrünü elm və təhsil yolunda şam kimi əridən səksən dörd yaşlı Qiyas müəllim dəyərli bir ömür yaşayır. Mənim də müəllimim olduğu üçün daima qürur duyuram bu insanla... Şərəfli, çətin və mürəkkəb bir peşəni – müəllimliyi öyrəndim ondan... Vicdanla işləməyi, insanlara, faktlara, hadisələrə olduqca obyektiv yanaşmağı, düzlük və doğruluğu təlqin etməyi, səbrli olmağı öyrəndim mən də hər cəhətdən ideallıq səviyyəsində dayanan Qiyas müəllimdən.

Qiyas müəllim həm də zərif şeirlər müəllifidir. O, gənclik illərindən şeirə maraq göstərir, içindən gələn duyğuları ağ kağızlara köçürür. Şairin "İradlar və tövsiyələr" adlı şeirlər kitabında səmimi ovqatdan doğan lirik poeziya nümunələri toplanıb...

Şeirlərinin bir qismi sevgi, məhəbbət mövzusuna həsr olunub. Şairin poeziyasında məhəbbət ünvanlı şeirlərin ayrıca yeri və çəkisi vardır. Bu şeirlərdə saf və təmiz duyğuların tərənnümü ön plana çıxır. Poetik ifadə imkanının zənginliyinə görə seçilən bu şeir parçası oxucuların qəlbinin sarı siminə toxunur:

*Bu səhər çıxmışdım bulaq başına,*
*Orda gözəllərin yığnağın gördüm.*
*O büllur sularda haqqıx daşına*
*Baxanda qızların yanağın gördüm.*

Şairin poeziyasında gözəllər poetik rənglərlə, bədii boyalarla təsvir edilir. Lirik hissləri tərənnüm edən şeirlərində gözəlin canlı portreti heyrətləndirir oxucunu:

*Arxada səhəngi bir gözəl pəri,*
*Yenicə xınadan çıxıb əlləri,*
*Görünür əndamda çatının yeri,*
*Həm alını gördüm, həm ağın gördüm.*

Şair "Məhəbbətin oduna bax" adlı şeirində eşq odu ilə yanan bir aşiqin kövrək hisslərini, qəlb çırpıntılarını, məhəbbətinin böyüklüyünü səmimi bir dillə oxuculara çatdırır:

*Məhəbbətin oduna bax,*
*Ölənəcən sönən deyil.*
*Onu sevən bilər ancaq,*
*Heç vaxt ürək dönən deyil.*

Müəllifin bu poetik nümunəsi, bu canlı bədii lövhə insan qəlbinə, ruhuna təsir edir, bir titrəyiş yaradır onun içində...

Şair bütün varlığı, əqidəsi, düşüncəsi ilə elinə-obasına, bütövlükdə xalqına bağlı olan bir sənətkardır. Onun vətənə olan əbədi bağlılığını, sevgisini ifadə edən misralarını həyəcansız oxumaq olmur:

*Başımın tacısan, gözümün nuru,*
*Ağzımın ləzzəti, canım, ey Vətən!*
*Dədə-babaların fəxri, qüruru,*
*Yansan, atəşinə yanım, ey Vətən!*

Şair Vətənin hər mənzərəsini cənnətə bənzədir. Həm də oxucularını doğma Vətəni sonsuz məhəbbətlə sevməyə çağırır. "Ey Vətən" adlı şeirində Qarabağ dərdini, Qarabağ yanğısını poetik həyəcanla dilə gətirir. İztirab havalı bu şeirdə xarıbülbülü qan ağlayan Cıdır düzündən, sinəsi dağlı Şuşa qalasından danışır, yağı tapdağında olan torpaqlarımızın, yiyəsiz qalan obalarımızın harayına səs verir:

*Hanı Cıdır düzü, Şuşa qalası,*
*Nəmli gözlərini dikib yollara.*
*Ucalıb göylərə ahü naləsi,*
*İnciyəcək Xurşudbanum, ey Vətən!*

O, Vətənin hər qarış torpağını müqəddəs sayır, onu hər şeydən üstün tutur.Yad əllərdə qalmış Şuşanın, Laçının ah-naləsi, fəryadı göynədir onun ürəyini. Şair Qarabağ dərdini, bu dərdin böyüklüyünü olduqca canlı şəkildə misralara köçürüb:

*Yadıma düşəndə Şuşam, Laçınım,*
*Başımın tüstüsü göyə ucalır.*
*Vətəndə vətənsiz olub qaçqınım,*
*Qəlbimin simləri "Zarıncı" çalır.*

Fəxri, vüqarı adlandırdığı Vətənə qarşı xain çıxanlar şairi son dərəcə hiddətləndirir. O, bu xəyanətləri heç cür bağışlaya bilmir, onlara nifrətlər yağdırır:

*Ucalasan, ey vətənim,*
*Fəxrim, vüqarımsan mənim!*
*Kül gözünə, kim ki sənə*
*Xain çıxıb dönə-dönə!*

Qiyas Ağamirlinin şeirlərində lövhələr tez-tez dəyişir. O, doğma təbiəti bir obraz səviyyəsinə qaldırır. Yazda təbiətin gözəlləşməsini, keçmiş zamanlarda kənd əhalisinin arandan-dağa köçməsini bədii bir dillə belə təsvir edir:

*Yenə xəyalımda durur o günlər,*
*Yaz olanda yaylaqlara gedərdik.*
*Atların belində qəvəli yəhər,*
*Yolda gah minərdik, gah yedəklərdik,*
*Yaz olanda yaylaqlara gedərdik.*

Qiyas Ağamirli şeirlərində dağlarımızın məğrurluğu, əyilməzliyi, füsunkarlığı rəngarəng bədii boyalarla təqdim olunur:

*Hər çiçəkdən azca dərib gətirsən,*
*Xəstə mənə dərman üçün yetirsən,*
*Nəfəsindən mənə nəfəs gətirsən,*
*O dağların loğman olan çağı var!*

Bu misraları oxuduqca dəyişir insanın həyat yolunun axarı... Təbiətə heyranlıqdan doğan bu poetik parçadan dağ nanəsinin, kəklikotunun, çöl çiçəyinin bihuşedici ətri gəlir sanki...

Eyni zamanda, düşmən tapdağı altında qalan dağlarımız şairin ürəyini ağrıdır, cızdağını çıxardır onun:

*Dili yox, dərdini nə ilə desin,*
*"Ürəyini" açıb bizə göstərsin,*
*Gözlərində həsrət, baxışında kin,*
*Çatmır qulaqlara ünü dağların.*

Azərbaycan poeziyasında olduğu kimi, Qiyas Ağamirli yaradıcılığında da "Durnalar" şeiri özünün bir sıra fərdi keyfiyyətləri ilə diqqəti cəlb edir. Müəllif göy üzündə uçan durnalara müraciət edərək, onlarla dərdləşir və qarşıda təhlükə olduğu üçün durnalara ehtiyatlı olmağı tapşırır:

*Dünya sizə olub dar,*
*Qarşıda təhlükə var,*
*Düzülün bircə qatar,*
*Durnalar, ay durnalar...*

Bu misralardan görünür ki, şair müasir dünyanın gedişatından narahatdır, dünyada gedən müharibələrə son qoyulmasına işarə edir, yer üzündə sülhün bərqərar olmasını və dünyanın əmin-amanlıq içində yaşamasını istəyir.

Müəllifin mövzu dairəsi olduqca genişdir. Şairin şeirlərində övlad sevgisi çox bədii və poetik bir şəkildə öz ifadəsini tapıb. "Uşaqlarıma" adlı şeirində aşağıdakı misralar hər bir oxucunun iç dünyasını işıqlandırır:

*Ağzıma bir şirin tikə alanda*
*İstərəm, çıxarıb göndərəm sizə.*
*Gecənin sazağı layla çalanda*
*Nə ola, sizinlə yatam üz-üzə.*

Qiyas Ağamirli yaradıcılığında öz rəngi, öz çaları olan "İnsan gəlir bu dünyaya" şeiri Hamlet İsaxanlının anadan olmasının 50 illiyi münasibətilə

yazılmışdır. Şeirdə göstərilir ki, insan zirvəyə yüksəlmək üçün daim axtarışda olmalı, yazmalı və yaratmalıdır:

*İnsan gəlir bu dünyaya*
*Nəsə qurub yaratmağa.*
*İnsan gəlir bu dünyaya*
*Tum tullayıb, tağ atmağa.*

*İnsan gəlir bu dünyaya*
*Zirvələrə ucalmağa.*
*İnsan gəlir bu dünyaya*
*İnsan kimi yaşamağa.*

Çox qəribədir bu həyat... İnsan gəlir bu dünyaya... O, enişli-yoxuşlu, şirinli-acılı bir ömür yaşayır. Elmli, savadlı insan həmişə yaxşı ad qazanır, özündən sonra gələcək nəsillərə bir iz qoymaq üçün durmadan çalışır. Bu şeirdə belə bir insandan söz açılır – həyat eşqi ilə, qurub-yaratmaq həvəsi ilə alovlanıb-yanan bir insandan... Söz açılır təmiz əqidəli bir insandan, xeyirxahlığı, humanistliyi daim özünün həyat amalına çevirən bir ziyalıdan... Bu şeirdə insanın mənəvi aləmi, onun nəcib hissləri, təmiz və xeyirxah arzuları sənətkarlıqla tərənnüm olunur.

Hamlet İsaxanlının yaratdığı təhsil ocağı –Xəzər Universiteti də Qiyas Ağamirlinin diqqət mərkəzindədir. Səmimi hislərlə, gözəl duyğularla yazılmış bu şeir şairin təhsilə və elmə verdiyi yüksək dəyərin ifadəsidir:

*Qanadlıdır gözəl pəri,*
*Sahilsizdir sahilləri.*
*Hamletimin şah əsəri*
*Mən "Xəzər"i axtarıram,*
*Çoxdan bəri axtarıram.*

Şair bu şeir parçasında "Xəzər"lə qürur duyduğunu diqqətə çatdırır və bu elm məbədini Hamlet İsaxanlının şah əsəri adlandırır. Bu misraları oxuduqca şairin ürək çırpıntılarını duymaq olur. Ürək çırpıntıları ilə yazılan şeirlər isə pərçimlənir neçə-neçə beyinlərə....

Şair qocalıq mövzusuna da müraciət edib. O, qocalığın üstünə hücum etdiyini, ömrünün illərinin əriyib getdiyini görür, bu zaman gənclik illərini xatırlayır. O, bu illəri bir də yaşamaq istəyir. "Nə ola, cavanlıq qayıda geri" şeirində keçdiyi ömür yolunun o nurlu səhərinin – gənclik çağlarının geri qayıtmasını arzulayır:

*Nə ola, cavanlıq qayıda geri,*
*Tərsinə fırlana ömrün təkəri.*
*Ucalda biləydim gənclik səsimi,*
*Təzədən köklənəydi qəlbimin simi.*

Şairin yaradıcılığında böyük tərbiyəvi əhəmiyyətə malik öyüd-nəsihətləri də xüsusi yer tutur. O, oğluna yazdığı bir şeirində gənclərə peşə və sənət sahibi olmağı, halal zəhmətdən boyun qaçırmamağı tövsiyə edir, eyni zamanda, onları ağsaqqal sözünü dinləməyə çağırır:

*Heç zaman zəhmətdən boyun qaçırma,*
*Axırda bəhrəsin görərsən, oğul.*
*Hər yana boylanıb ağıl çaşırma,*
*Bağ saldın, barısın hörərsən, oğul*

Göründüyü kimi, müəllif bu poetik parçada oğlunun timsalında gənclərə üz tutaraq onlara dəyərli məsləhətlər verir.

Öyüd-nəsihətlərində insanlarda ağıl, mərifət, mərdlik, mənəvi təmizlik, dünya malına tamahsızlıq, təvazökarlıq, ədalətli olmaq və s. kimi mənəvi keyfiyyətlər də yüksək qiymətləndirilir:

Deyirlər, hər kəsin özünün bir dünyası var. Kimsənin bilmədiyi bir dünyası... Qiyas Ağamirli dünyasında Tanrının iki payı özünə yer tapıb: bir tərəfdən, peşəsinin vurğunu olan müəllim olmaq, digər tərəfdən isə, könül dünyasında gözəl duyğularla yaşayan, bu dünyanın kədərini, qəmini, sevincini şeirlərində dilə gətirən, eşqin, məhəbbətin böyüklüyünü yüksək pafosla tərənnüm edən bir şair olmaq:

*Ululardan sən ulusan,*
*Mənim dünyam, mənim dünyam.*
*Sonsuz karvanlar yolusan,*
*Mənim dünyam, mənim dünyam!*

*Heç kəs sənlə güləşəmməz,*
*Cürət edib "mənəm" deməz,*
*Oyunların çoxdur, qərəz,*
*Mənim dünyam, mənim dünyam!*

Bax beləcə, bambaşqa bir dünyası var bu şairin – Qiyas Ağamirlinin...

**Elza İsmayılova**

## THE MOST POWERFUL PASSPORTS IN THE WORLD

Independent
15 June 2015

British passports have been ranked the fourth most powerful passports in the world.

This is according to research conducted by transport search comparison site GoEuro, which has ranked different passports based on cost, the number of hours work needed to acquire one, how long the document is valid for, and how many countries it provides visa-free entry to.

Taking these factors into consideration, a British passport is one of the most useful passports in the world, allowing its holder to visit 174 countries visa-free at a cost of just £73. By comparison, the US passport allows entry to the same number of countries but costs £16 more.

Swedish passports were deemed the most valuable with access to 174 countries for just £28, while Afghanistan came in last place, giving its passport holders access to only 28 countries at a cost of £69.

Afghan passport holders must also work 183 hours before they can obtain the document, compared to the one hour of work required in Sweden. British passport holders need to have 11 hours of work under their belts before they can apply.

Turkish passports are the most expensive in the world at £166, while UAE passports are the cheapest, costing a measly £9.

*http://www.independent.co.uk/travel/the-most-powerful-passports-in-the-world-1 1 4423.html*

The rankings, according to *www.passportindex.org, are as follows:*

1. United Kingdom, United States of America; 2. Germany, South Korea, France; 3. Italy, Sweden; 4. Singapore, Japan, Denmark, Finland, Netherlands, Luxembourg; 5. Switzerland, Canada; 6. Hungary, Ireland, Portugal, Belgium, Norway, Spain; 7. Malaysia, Greece, Austria; 8. New Zealand; 9. Cyprus, Czech Republic, Australia; 10. Slovakia, Poland; 11. Hong Kong, Malta; 12. Iceland, Slovenia; 13. Estonia, Latvia; 14. Lithuania, Bulgaria; 15. Liechtenstein; 16. Argentina, Israel; 17. Romania, Monaco, Brazil; 18. Brunei; 19. Chile, Croatia; 20. SanMarino; 21. Barbados, Andorra; 22. Bahamas, Mexico; 23. Seychelles; 24.Antigua and Barbuda; 25. St.Kitts and Nevis, Vatican City; Uruguay, Venezuela; 26 . Mauritius;27. Costa Rica, Panama; 28 .Taiwan; 29. Trinidad and Tobago, Turkey; 30. Macao, St.Vincent and the Grenadines; 31. St. Lucia; 32. United Arab Emirates, Serbia; 33. Paraguay; 34. Grenada; 35. Macedonia (FYROM); 36. Honduras; 37. Russian Federation, Guatemala, Montenegro; 38. El Salvador, Moldova; 39. Dominica, Ukraine; 40. Samoa; 41. Vanuatu, Bosnia and Herzegovina; 42. Nicaragua; 43. Albania; 44. South Africa; 45. Guinea; 46. Belize; 47. China; 48. Peru; 49. Sierra Leone; 50. Botswana, Kenya, Tonga; 51. Jamaica, Tuvalu; 52. Gambia, Niger, Belarus, Qatar, Ghana; 53. Maldives, Lesotho, Kazakhstan; 54. Kuwait, Ecuador, Guyana, Kiribati; 55. Fiji, Thailand; 56. Timor-Leste, Swaziland, Nauru, Colombia; 57. Mali, Tanzania, Nigeria, Zambia, Bahrain, Saudi Arabia, Namibia, **Azerbaijan**, Tunisia, Philippines; 58. Malawi, Mongolia, Morocco, Benin; 59. India, Georgia; 60. Uganda, Papua New Guinea, Suriname, Indonesia, Senegal; 61. Cape Verde; Bolivia; Cote D'Ivoire (Ivory Coast); 62. Armenia; 63. Oman, Marshall Islands, Kyrgyzstan; 64. Zimbabwe, Congo, Burkina Faso, Tajikistan, Uzbekistan, Mauritania, Egypt; 65. Liberia, Mozambique, Cuba; 66. Viet Nam, Palau, Guinea-Bissau, Algeria; 67. Bangladesh, Micronesia, Togo; 68. Jordan; 69.Syria, Cameroon; 70. Sri Lanka, Iran, Libya, Sudan, Turkmenistan; 71. Laos, Pakistan; 72. Chad; 73. Lebanon, North Korea, Cambodia, Gabon, Dominican Republic; 74. Rwanda, Angola; 75. Madagascar; 76. Kosovo, Yemen, Congo (Dem. Rep.), Central African Republic; 77. Burundi, Haiti, Comoros, Bhutan, Equatorial Guinea; 78. Somalia, Eritrea; 79. Iraq, Afghanistan, Nepal, Ethiopia, Djibouti; 80. Sao Tome and Principe, Palestinian Territories, Solomon Islands, Myanmar [Burma], South Sudan.

*http://www.passportindex.org/byRank.php*




# Xaqan Balayev

*AMEA İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutunun böyük elmi işçisi, siyasi elmlər üzrə fəlsəfə doktoru*


## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN HƏRBİ QURUCULUQ SİYASƏTİ

1917-ci ilin oktyabr çevrilişindən sonra Rusiyada hakimiyyəti ələ almış bolşeviklər çarizmin devrildiyini və hər bir xalqın öz müqəddəratını təyin etmə hüququnun olmasını rəsmi şəkildə bəyan etdilər. Hadisələrin sonrakı gedişatı göstərdi ki bu bəyannamə sovet hakimiyyətini möhkəmləndirmək üçün atılmış bir addım idi. Sovet rəhbərlərinin əsl niyyəti köhnə Rusiya imperiyasının əvvəlki hüdudlarında saxlanılmasına yönəlmişdi. Lakin o dövrdə milli istiqlalımızın liderləri tarixin onlara bəxş etdiyi bu fürsətdən layiqincə yararlandılar.

Belə ki, Zaqafqaziya Seyminin dağılmasından sonra Azərbaycan Milli Şurası 1918-ci il mayın 28-də ölkəmizin müstəqilliyinin bərpasına nail olmuş, bütün dünyaya Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığını elan etmişdir. Azərbaycanın öz müstəqilliyini elan etməsi olduqca mürəkkəb ictimai-siyasi proseslər fonunda baş vermişdir. Gürcüstan və Ermənistandan fərqli olaraq ölkə ərazisinin böyük hissəsi, o cümlədən paytaxtı Bakı bolşevik-daşnaq (1918-ci ilin aprelində rus kommunistləri və erməni daşnaqları birləşərək, Bakı Xalq Komissarları Soveti adlı qondarma hökumət qurmuşdular) qüvvələrinin işğalı altında idi.

Xarici qüvvələrin nəzarətində olan torpaqlarımızın azad edilməsi, həmçinin dövlət istiqlaliyyətinin qorunub saxlanılması (1918-ci ilin iyununda bolşevik-daşnaq ordusunun Gəncə üzərinə hücumu başlamışdı) Azərbaycan rəhbərliyi qar-şısında duran taleyüklü məsələlər idi. Məhz buna görə AXC yarandığı ilk gündən ordu quruculuğu məsələlərinə böyük önəm vermiş, dövlətin təhlükəsizliyinin əsas atributu olan silahlı qüvvələrin yaradılması istiqamətində böyük işlər görmüşdür.

1918-ci il mayın 28-də qəbul edilmiş istiqlal bəyannaməsində qeyd edilirdi ki, "Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələri zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, özünün silahlı qüvvələrini yaratmalıdır".

Lakin digər Qafqaz respublikalarından fərqli olaraq milli ordunun yaradılması sahəsində ciddi problem yaranmışdı. Bunun əsas səbəbi hələ çar Rusiyası dövründə müsəlmanların silahlı qüvvələrə cəlb edilməməsi olmuşdur, orduya yalnız ali müsəlman silkinə mənsub olanlar çağırılırdı. Təxminən bir əsrlik müddət ərzində azərbaycanlıların 4-5 nəslinə silah etibar edilməmiş (Türkiyə və İranla müharibələr zamanı çarizm müsəlman əhalinin ona silah çevirəcəyindən ehtiyat edirdi), onların hərbi hazırlığı çox aşağı səviyyədə olmuşdur. Göstərilən faktorların məntiqi nəticəsi olaraq peşəkar ordunun yaradılması sahəsində ölkə rəhbərliyi ciddi maneələrlə üzləşmişdi. Eyni zamanda, bütün bu çətinliklərə baxmayaraq xalqın və dövlətin mənafeyi naminə ordu quruculuğu prosesi yüksələn xətlə davam etdirilmişdir. Milli ordumuzun formalaşdırılmasında Osmanlı dövlətinin köməyini də xüsusi qeyd etməliyik. Məlum olduğu kimi, 1918-ci il iyunun 4- də Xalq Cümhuriyyəti və Osmanlı nümayəndələri arasında imzalanmış Batum müqaviləsinə əsasən lazım olan təqdirdə Türkiyə hökuməti Azərbaycana hərbi yardım edilməsinə dair öhdəlik götürmüşdü. Razılaşmaya uyğun olaraq elə həmin ilin yayında Nuru paşanın başçılığı ilə türk hərbi hissələri ərazimizə daxil oldu.

Bolşevik-daşnaq qüvvələrinin Gəncə üzərinə hücumu ilə əlaqədar olaraq 1918-ci il iyunun 19-da bütün ölkə ərazisində hərbi vəziyyət elan olundu. 1918-ci il iyunun 26-da isə (bu gün respublikamızda silahlı qüvvələr günü kimi qeyd olunur) AXC rəhbərliyinin qərarı ilə azərbaycanlılardan ibarət hərbi hissələrdən diviziya statusunda müsəlman əlahiddə korpusu yaradıldı.

Beləliklə, ordumuzun formalaşdırılması yolunda ilk addım atıldı. Bunun ardınca ölkədə hərbi mükəlləfiyyət, orduya çağırış haqqında hökumət tərəfindən fərman verildi. Milli korpusumuzun ilk hərbi sınağı Göyçay döyüşlərində iştirakı oldu. Düşmən ordusunun Gəncə üzərinə yürüşünün qarşısı alındı, onun hücum əməliyyatlarına birdəfəlik son qoyuldu. Os-

manlı qoşunları ilə birgə qazanılmış bu qələbədən sonra işğal edilmiş ərazilərimizin sovet-erməni tör-töküntülərindən təmizlənməsinə başlandı və bu tarixi missiya 1918-ci il sentyabrın 15-də Bakının azad edilməsi ilə şərəflə başa çatdırıldı. Paytaxta köçmüş respublika rəhbərliyi beynəlxalq gərgin şəraiti nəzərə alaraq, ordu quruculuğu prosesini daha da sürətləndirdi. 1918-cu il oktyabrın 23-də Nazirlər Kabineti hərbi nazirliyin yaradılması barədə qərar qəbul etdi. Həmin il noyabrın 7-də qərar qüvvəyə mindi. AXC-in ilk hərbi naziri vəzifəsi Nazirlər kabinetinin sədri Fətəli xan Xoyskiyə həvalə edildi. Bu fakt özü ölkə rəhbərliyinin hərbi məsələlərə necə böyük önəm verdiyini sübut edirdi.

Ordumuzun yaradılmasına o dövrün ən tanınmış hərbçiləri cəlb edilmişdi. 1918-ci ilin dekabrında Səməd bəy Mehmandarov hərbi nazir, Əliağa Şıxlinski onun müavini vəzifəsinin icrasına başladı. Əliağa Şıxlinski tərəfindən hərbi tədbirlər planı və strateji təkliflər hazırlandı. Plana görə 1919-cu ildə 25 minlik, 1920-ci ildə 40 minlik hərbi kontingentin formalaşdırılması nəzərdə tutulmuşdu. Dövlət büdcəsinin 24 faizi bu məqsəd üçün sərf edildi.

1919-cu il yanvarın 15-də baş qərərgah yaradıldı, Süleyman bəy Sulkeviç onun rəisi təyin edildi. Baş qərərgahın nəzdində hərbi məhkəmə və hərbi prokuror nəzarəti, hərbi nazirin yanında hərbi şura təsis edildi. Bu orqanların yaradılması orduda nizam-intizamı möhkəmləndirməklə yanaşı, bolşevik təbliğatının genişlənməsinin qarşısını da alırdı. Milli zabit kadrlarının artırılması sahəsində də əməli işlər görüldü. Hələ 1918-ci ilin yayında Gəncədə hərbi məktəb yaradılmışdı. 1919-cu ilin noyabrında burada ümumi, topçuluq və mühəndislik şöbələri fəaliyyət göstərirdi. 1918-ci il oktyabrın 27-də üç hərbi məktəb yaratmaq məqsədilə hərbi nazirliyin sərəncamına 50 min manat vəsait ayrıldı. 1920-ci ildə süvari, topçuluq və snayper məktəbləri yaradıldı. Bu tədris müəssisələrində dərs demək üçün mütəxəssislər dəvət edildi. Türk və rus zabitlərinin köməkliyi ilə piyada və süvari polklar, artilleriya briqadası, diviziyası yaradıldı. AXC hökuməti ordunun müasir silah növləri və hərbi sursatla təmin edilməsinə ciddi diqqət yetirirdi. Bu baxımdan 1919-cu il iyunun 27-də Gürcüstanla imzalanmış hərbi müdafiə paktının böyük rolu olmuşdur. Bu müqaviləyə uyğun olaraq ordumuz Gürcüstandan çoxlu sayda hərbi sursat almışdı. Təchizatın yaxşılaşdırılması üçün İtaliya hərbi nazirliyi ilə də danışıqlar aparıldı. Bütün bu görülən işlər nəticəsində ordumuzun peşəkarlıq səviyyəsi xeyli yüksəldi.

Həmin illərdə Muğanda qırmızı ordu hissələri, Əsgəran və Qazaxda isə erməni daşnaq qoşunları darmadağın edildi. Xüsusilə əlamətdar haldır ki, bu əməliyyatları ordumuz müstəqil şəkildə həyata keçirmişdi (əvvəlki döyüşlərdə Osmanlı ordusu ilə müştərək vuruşmuşdu).

Azərbaycan parlamentində də ordu quruculuğu ilə bağlı müəyyən qanunlar hazırlanmışdı, onlardan ən mühümü 1919-cu il avqustun 18-də sərhəd mühafizəsinin təsis edilməsi haqqında qanunun qəbulu idi. Qanuna müvafiq olaraq respublikanın bütün sərhədləri boyu mühafizə sərhədd postlarının yaradılması nəzərdə tutulmuşdu.

1920-ci ilin yanvarında 40 minlik nizami ordunun formalaşdırılması başa çatdırıldı. Onun tərkibinə 2 piyada və 1 süvari diviziyası daxil idi. Hərbi hissələrimiz qərb standartları əsasında yaradılmış, müxtəlif qoşun növləri arasında əlaqələndirici fəaliyyət təşkil edilmişdi. Lakin o zaman mövcud olan gərgin daxili və beynəlxalq şərait hərbi tədbirlərin daha da təkmilləşdirilməsi yolunda ciddi problemlər törətdi. Bu dövrdə ermənilərin Qarabağa və Əsgərana hücumları ilə əlaqədar olaraq milli ordu hissələrimiz general Həbib bəy Səlimovun başçılığı ilə düşmənə qarşı döyüşlərə cəlb edildi. Əsgəran ətrafında ermənilər məğlubiyyətə uğradıldı, daşnaq qiyamı yatırıldı. Digər tərəfdən ordumuzun böyük əksəriyyətinin qərb ərazilərində cəmləşdirilməsi Sovet Rusiyasının hərbi müdaxiləsi ərəfəsində şimal sərhədlərimizdə müdafiənin zəifləməsinə səbəb oldu. Bundan istifadə edən XI rus ordusu elə həmin il aprelin 28-də Bakını tutaraq AXC hakimiyyətini devirdi və sonralıqca bütün Azərbaycanı işğal edərək sovetləşdirdi. Müstəqil dövlətçiliyimizin süqutu ilə ordu quruculuğu prosesinə də son qoyuldu.

Eyni zamanda, qeyd etməliyik ki, milli ordunun yaradılması AXC rəhbərliyinin xalqımız qarşısında ən böyük tarixi xidmətlərindən biri idi. Silahlı qüvvələrimiz sonadək vətənimizin müstəqilliyi naminə şərəflə vuruşmuş, öz əsgəri borcunu layiqincə yerinə yetirmişdir.

**Ədəbiyyat**

1. Azərbaycan Xalq Cümhuriyyətinin milli ordusu.
https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_Xalq_C%C3%BCmhuriyy%C9%99tinin_Milli_Ordusu
2. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. I cild, Bakı, 2004
3. Azərbaycanın Hərb Tarixi. https://www.google.az/webhp?sourceid=chrome-instant&ion=1&espv=2&ie=UTF-8#q=Az%C9%99rbaycan%C4%B1n+H%C9%99rb+Tarixi

# Устный перевод

Саадат Алиева
Азербайджанский Университет Языков

Письменный и устный перевод – это две формы одного и того же процесса, и хотя у них одна и та же цель, один и тот же принцип действия, одна и та же теория перевода, тем не менее это две разные профессии.

Если для письменного перевода исходным является письменный текст, то для устного перевода исходным является устное высказывание и результатом перевода – также устное высказывание.

Устный и письменный переводчики работают в разных условиях, в разных временных рамках процесса перевода, возможности использовать словари, справочную литературу и т.д.

Несмотря на существенные различия, это – родственные профессии, и прежде чем приступать к изучению устного перевода, следует пройти этап освоения основ перевода на материале письменных текстов. Письменный перевод – обязательный этап, предшествующий изучению устного перевода.

На уроках письменного перевода студенты занимаются предпереводческим анализом текста, учатся анализировать поверхностную и выявлять глубинную структуру исходного текста, извлекать содержащуюся в тексте информацию. Работая над письменным переводом, учащиеся овладевают техникой перевода, приемами прагматической адаптации текста. Это прекрасное упражнение по обогащению словаря, освоению способов достижения эквивалентности, расширению фоновых знаний.

Письменный перевод – базовая дисциплина, которую должны освоить будущие переводчики. После чего можно приступить к изучению устного перевода.

Процесс последовательного перевода можно разделить на этапы слушания и запоминания. Важным этапом является запоминание, что и предполагает активное слушание, обеспечивающее запоминание содержания. Существует несколько способов удержания в памяти смысл высказывания. Например, текст-описание. Для запоминания описательного текста можно использовать прием «мысленного представления»: мысленно представить себе «картинку», которая предстает перед мысленным взором, как бы «оживляет» содержание текста и позволяет переводчику описать то, что он «видит». При переводе повествовательного текста характерно сообщение о развивающихся действиях, событиях, состояниях. При этом переводе важно мысленно составить план, а затем перевести. Проблема, с которой сталкивается переводчик при передаче лексических значений – это несовпадение круга значений. Не существует двух различных языков, где устойчивые словосочетания полностью совпадали бы во всем объеме. Сами выражения могут совпадать, но способы выражения могут расходиться более или менее радикальным образом.

Случаи полного соответствия при переводе разных языков во всем объеме их значения относительно редки. В целом, типы перевода можно свести к трем основным группам: 1)полное соответствие, 2) частичное соответствие, 3)отсутствие соответствия. Случаи полного соответствия относительно редки. Как правило, это слова однозначные, то есть имеющие в обоих языках только одно значение, число их, как известно, по сравнению с общей массой слов в лексиконе языка относительно невелико. Сюда относят слова, принадлежащие преимущественно к следующим лексическим группам:

1. Имена собственные и географические названия, входящие в словарный запас обоих языков;
2. Научные и технические термины;
3. Некоторые другие группы слов, как например, названия месяцев и дней недель, а так же числительные.

Не следует думать, что все слова, принадлежащие к вышеуказанным группам, относятся к числу полных совпадений. Нередко имеются случаи, когда однозначности совпадений в пределах данных разрядов не наблюдается.

В очень редких случаях полное совпадение, то есть совпадение слов в двух языках во всем объеме их значений, встречается и у многозначных слов.

**Литература**

С.А. Бурляй "Устный перевод"

К.В.Феськов «Современный французский язык»




## Valideynlərin və şagirdlərin nəzərinə!

Xəzər Universitetinin Dünya məktəbi 2016-2017-ci tədris ilində I-XI siniflərə şagird qəbulu elan edir:

Qəbul müsabiqə yolu ilə həyata keçirilir.

Təhsil 3 dildə (Azərbaycan, rus, ingilis) aparılır.

Azərbaycan və rus bölmələrində ingilis dili ikinci dil kimi tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman, çin dilləri də öyrədilir.

Məktəbdə təcrübəli pedaqoqlar, o cümlədən xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar. Burada savadla yanaşı, tərbiyə də mühüm yer tutur.

Dünya məktəbi beynəlxalq statuslu məktəbdir. O, Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Orqanization – IBO) üzvüdür. Məktəbdə IB Diplom Proqramı fəaliyyət göstərir.

# Dünya məktəbi

X sinif şagirdləri tam orta təhsillə yanaşı, öz istəkləri ilə Beynəlxalq Bakalavr Təşkilatının Diplom Proqramında təhsil ala bilərlər. Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər.

Diplom proqramında təlim ingilis dilindədir. Təhsil müddəti iki ildir.

Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar.

# Məktəbəqədər hazırlıq

2016-2017 –cı il üçün hazırlığa uşaq qəbulu davam edir.

Hazırlıqda 4-5, 5-6 yaşlı uşaqlar üçün Azərbaycan, ingilis və rus dillərində qruplar təşkil olunub. Bütün qruplarda əlavə iki dil (Azərbaycan, ingilis, rus) tədris edilir.

Gündəlik dərs proqramından əlavə, Şahmat, Kompüter, Psixologiya, Rəsm-əmək, Rəqs, Dram və Musiqi dərsləri keçirilir.



Ünvan: Bakı, Əcəmi Naxçıvani 9

Dünya məktəbi
Tel.: (+99412) 563 59 40 /47/48
Mob.: (+99470) 844 08 88
E-mail: info@dunyaschool.az

Məktəbəqədər hazırlıq
Tel.: (+99412) 563 59 43/ 45
Mob.: (+99470) 560 15 18
E-mail: bagca@dunyaschool.az

http: //dunyaschool.az




**Yanvar**

| B.e. | Ç.a. | Ç. | C.a. | C | Ş | B |
|---|---|---|---|---|---|---|
| | | | | 1 | 2 | 3 |
| 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 |
| 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 |
| 25 | 26 | 27 | 28 | 29 | 30 | 31 |

**Fevral**

| B.e. | Ç.a. | Ç. | C.a. | C | Ş | B |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 |
| 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 |
| 29 | | | | | | |

**Mart**

| B.e. | Ç.a. | Ç. | C.a. | C | Ş | B |
|---|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
| 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 |
| 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 |
| 28 | 29 | 30 | 31 | | | |

**Aprel**

| B.e. | Ç.a. | Ç. | C.a. | C | Ş | B |
|---|---|---|---|---|---|---|
| | | | | 1 | 2 | 3 |
| 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 |
| 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 |
| 25 | 26 | 27 | 28 | 29 | 30 | |

**May**

| B.e. | Ç.a. | Ç. | C.a. | C | Ş | B |
|---|---|---|---|---|---|---|
| | | | | | | 1 |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 23 | 24 | 25 | 26 | 27 | 28 | 29 |
| 30 | 31 | | | | | |

**İyun**

| B.e. | Ç.a. | Ç. | C.a. | C | Ş | B |
|---|---|---|---|---|---|---|
| | | 1 | 2 | 3 | 4 | 5 |
| 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
| 13 | 14 | 15 | 16 | 17 | 18 | 19 |
| 20 | 21 | 22 | 23 | 24 | 25 | 26 |
| 27 | 28 | 29 | 30 | | | |

**İyul**

| B.e. | Ç.a. | Ç. | C.a. | C | Ş | B |
|---|---|---|---|---|---|---|
| | | | | 1 | 2 | 3 |
| 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 |
| 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 |
| 25 | 26 | 27 | 28 | 29 | 30 | 31 |

**Avqust**

| B.e. | Ç.a. | Ç. | C.a. | C | Ş | B |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 |
| 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 |
| 29 | 30 | 31 | | | | |

**Sentyabr**

| B.e. | Ç.a. | Ç. | C.a. | C | Ş | B |
|---|---|---|---|---|---|---|
| | | | 1 | 2 | 3 | 4 |
| 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |
| 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 |
| 26 | 27 | 28 | 29 | 30 | | |

**Oktyabr**

| B.e. | Ç.a. | Ç. | C.a. | C | Ş | B |
|---|---|---|---|---|---|---|
| | | | | | 1 | 2 |
| 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 |
| 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 |
| 24 | 25 | 26 | 27 | 28 | 29 | 30 |
| 31 | | | | | | |

**Noyabr**

| B.e. | Ç.a. | Ç. | C.a. | C | Ş | B |
|---|---|---|---|---|---|---|
| | 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
| 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 |
| 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 |
| 28 | 29 | 30 | | | | |

**Dekabr**

| B.e. | Ç.a. | Ç. | C.a. | C | Ş | B |
|---|---|---|---|---|---|---|
| | | | 1 | 2 | 3 | 4 |
| 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |
| 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 |
| 26 | 27 | 28 | 29 | 30 | 31 | |

*1 yanvar - Yeni il bayramı*
*8 mart - Qadınlar günü*
*20-21 mart - Novruz bayramı*
*9 may - Qələbə günü*
*28 may - Respublika günü*
*15 iyun - Milli Qurtuluş günü*
*26 iyun - Silahlı Qüvvələr günü*
*17-18 iyul- Ramazan bayramı*
*24-25 sentyabr - Qurban bayramı*
*18 oktyabr - Dövlət Müstəqilliyi günü*
*9 noyabr - Dövlət Bayrağı günü*
*12 noyabr - Konstitusiya günü*
*17 noyabr - Milli Dirçəliş günü*
*31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəliyi günü*